QARABAĞ AZƏRBAYCANDIR!

Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədidir



3

# “Əsrlər boyu xalqlarımız arasında tarixi əlaqələr mövcud olub”

**Prezident İlham Əliyev Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbərini qəbul edib**



2

SƏS
№ 224 (6665) 7 dekabr 2022-ci il. Qiymәti 60 qәpik

# “Qardaş yumruğu” -

## Arazın o tayı da, bu tayı da...

Dekabrın 5-dən başlayaraq iki qardaş və müttəfiq dövlətlərin - Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin İranla sərhədlərdə yerləşən Astara, İmişli və Cəbrayıl rayonlarında ”Qardaş yumruğu” adlı irimiqyaslı hərbi təlimləri keçirilir. Məhz təlimlərin keçirildiyini əks etdirən videogörüntülərdə ilk nəzərə çarpan...



8

### Ərdoğan: “Azərbaycanla birgə addımlarımızı davam etdirəcəyik”



2

### “Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasında jurnalistlər böyük rola malikdirlər”



5

### “Siyasi partiyalar haqqında” yeni qanun layihəsinə 66 dəyişiklik edilib



7

## Sülh razılaşması olmazsa...



11

## İspaniya millisi ŞOKDA, Mərakeş yığması 1/4 finalda!



# “Əsrlər boyu xalqlarımız arasında tarixi əlaqələr mövcud olub”

## Prezident İlham Əliyev Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbərini qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 6-da Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikovu qəbul edib. Prezident İlham Əliyev Azərbaycan Respublikasının Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən Dağıstan Respublikası ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi və bunun Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafına töhfə verdiyini dedi. Dövlətimizin başçısı, eyni zamanda, bildirdi ki, Azərbaycan-Rusiya əlaqələri 2022-ci ildə də uğurla inkişaf edib. Prezident İlham Əliyev bu baxımdan qarşılıqlı səfərlərin və səmərəli görüşlərin əhəmiyyətini vurğuladı, eyni zamanda, bu yaxınlarda keçirilən növbəti Azərbaycan-Rusiya regionlararası Forumunun önəmini qeyd etdi.**

Dövlətimizin başçısı əsrlər boyu xalqlarımız arasında tarixi əlaqələrin mövcud olduğunu vurğulayaraq müasir dövrdə də bu münasibətlərin möhkəmləndiyini məmnunluqla diqqətə çatdırdı. Bu baxımdan Prezident İlham Əliyev Sergey Məlikovun ölkəmizə səfərinin Azərbaycanla Dağıstan arasında konkret istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Xalqlarımızın qardaşlıq əlaqələrinin mövcud olduğunu bildirən Sergey Məlikov digər xalqların nümayəndələri ilə yanaşı, azərbaycanlıların da Dağıstanda vahid ailə kimi yaşadıqlarını məmnunluqla qeyd etdi. O, ölkəmizə səfəri zamanı keçiriləcək görüşlərin əməkdaşlığın daha da genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycan Prezidentinin Sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, o cümlədən Azərbaycan və Dağıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında səmərəli fəaliyyətinə görə Dağıstan Respublikasının rəhbərinin müşaviri Maqomed Səidoviç Qurbanova təltif olunduğu ”Şöhrət” ordenini təqdim etdi. Sonra xatirə şəkilləri çəkdirildi.

Daha sonra Azərbaycan Prezidentinə görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin vaxtilə iş otağında olan heykəltəraşlıq əsəri təqdim edildi.

Qeyd edək ki, Əziz Əliyev 1942-1948-ci illərdə Dağıstana rəhbərliyi dövründə digər Qafqaz xalqları kimi, Dağıstan xalqına qarşı da nəzərdə tutulmuş sürgünün qarşısını almışdı. Buna görə Dağıstan ağsaqqalları adından ona tərkində uşaq olan atlının əks olunduğu heykəltəraşlıq əsəri hədiyyə edilib. Bu əsər bundan sonra Prezident İlham Əliyevin iş otağında olacaq.











## Ərdoğan: ”Azərbaycanla birgə addımlarımızı davam etdirəcəyik”

“Bu gün Azərbaycanda hərbi təlim var idi. Bu, azərbaycanlı qardaşlarımızla birlikdə həyata keçirilən bir təlim idi. Qardaşlarımızla bizim əsgərlərimiz, komandanlarımızın birlikdə keçirdikləri təlim sona çatdı. Onlarla bir telefon əlaqəsi qurub təbriklərimizi çatdırdıq. Əsas məqsəd o həyəcanı, coşqunun sevincini onlarla bölüşmək idi.”

Bu fikirləri Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə İşəgötürənlər Dərnəkləri Konfederasiyasının (TİSK) qurultayındakı çıxışında Azərbaycanda keçirilən ”Qardaş yumruğu” təlimindən bəhs edərək söyləyib. Türkiyə dövlətinin başçısı vurğulayıb ki, təlimlərin məqsədi sərhəddə baş verə biləcək problemləri yerindəcə həll etmək olub.

Prezident İlham Əliyevlə vəziyyəti müzakirə edib birlikdə plan hazırlayaraq addım atdıqlarını xatırladan Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, proseslər azərbaycanlı-türk qardaşlığının ”iki dövlət, tək millət” anlayışında birləşdirir. ”Biz atdığımız addımları bundan sonra da davam etdirəcəyik”, - deyə Prezident Ərdoğan bildirib.

# Rumıniya mətbuatı Şəki Xan məscidi kompleksində aparılan bərpa işlərindən yazır

Rumıniyanın qabaqcıl ”News24hours” nəşri Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi kompleksində aparılmış bərpa işləri ilə tanış olması barədə məlumat yayıb.

AZƏRTAC-a istinadla çıxan məqalədə bildirilib ki, Şəki Xan məscidi kompleksi əsaslı bərpa işlərindən sonra istifadəyə verilib. Tarixi Şəki Xan məscidində bərpa işləri 2021-ci ilin may ayından etibarən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Heydər Əliyev Fondu bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar olunan və Şəki xanı nəslinə aid olduğu ehtimal edilən skelet nümunələri üzrə tədqiqatların aparılmasına da dəstək göstərib. Qeyd olunub ki, Heydər Əliyev Fondu tərəfindən 2021-ci ildə başlanan bərpa işləri çərçivəsində əvvəl Şəki şəhərinin ”Yuxarı Baş” Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən Xan məscidi kompleksində 3D ölçmə işləri aparılıb. Bu işlər məscid kompleksinin ilkin görüntüsünün əldə edilməsi baxımından əhəmiyyətli olub. Məscidin ilkin tikintisi zamanı olan pəncərələr və Məhəmmədhüseyn xanın istifadə etdiyi qapı bərpa edilib. Memarların rəyi əsasında yerli memarlıq atributlarından olan şəbəkədən istifadə edilməklə pəncərələrdən ikisinin əvvəlki görüntüsü qaytarılıb. Məlumat verilib ki, məscid kompleksinin ərazisində Heydər Əliyev Fondunun dəstəyi ilə muzey də yaradılıb. Muzeydə Şəki xanlığı dövrünə aid fərqli eksponatlar, müxtəlif mənbələrdən toplanan maddi-mədəniyyət nümunələri təqdim olunur.






# Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədidir

Bu gün dünyada elə bir xalq tapmaq olmaz ki, tarixinin taleyüklü və mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına Tanrının bəxş etdiyi böyük şəxsiyyətdir. Və xalqımız ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 19-cu ildönümünü onun ən böyük arzusunun çin olmasının - Qarabağın düşməndən azad edilməsinin sevinci ilə qeyd edir. Bu gün Ulu öndərin ən layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə millət atası Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi vəsiyyətini gerçəkləşdirdi.Sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına qarşı əks-hücum əməliyyatı ilə başlayan və noyabrın 10-da düşmənin təslim olması ilə nəticələnən İkinci Qarabağ müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımızın çağdaş tarixinə möhtəşəm zəfər salnaməsini yazdı. Azərbaycan misilsiz Qələbə qazandı. Bu qələbə müstəqil dövlətimizin gücünü, ölkəmizin qüdrətini, xalqımızın döyüş ruhunu, qələbə əzmini dünyaya bir daha təqdim etdi. Və ən əsas odur ki, bütün dünya Azərbaycanın bir dövlət olaraq gücünün bir daha fərqində oldu. Dünya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi, diplomatik hazırlığına, bacarıqlı dövlət rəhbəri, Müzəffər Ali Baş Komandan, yenilməz Sərkərdə olduğuna bir daha əmin oldu, xalqımızın vətənpərvərliyini, milli birliyini gördü. Beynəlxalq aləm ordumuzun rəşadətinə, əsgərlərimizin igidliyinə şahidlik etdi. Biz də özümüzü xoşbəxt hesab edirik ki, Azərbaycan tarixində son yüzilliklərin ən parlaq qələbə tarixinin canlı şahidləri olduq. Gələcək nəsillərin keçmişə boylananda hər zaman böyük qürur hissi ilə xatırlayacağı günlərin canlı şahidlərinə çevrildik. Eyni zamanda, haqq davamızın nəticəsi olan bu qələbə xalqımızı daha da bütövləşdirdi, mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi. 44 günlük müqəddəs savaş dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Milli tariximizi nə qədər oxusaq da, gözəl bilsək də, ona hər zaman sadiq qalsaq da, Qarabağsız bu tarix, sanki tam deyildi. Məhz belə bir mənəvi boşluğu Ali Baş Komandanın böyük cəsarəti, qətiyyəti, Müzəffər Ordumuzun böyük ruh yüksəkliyi, döyüş hazırlığı tamamladı. Azərbaycan, sadəcə, torpaqlarımızın işğaldan azad olunması ilə kifayətlənmədi, eyni zamanda, ümummilli məsələlərdəki həmrəyliyini, xalqımızın parlaq gələcəyini bütün dünyaya nümayiş etdirdi. Ölkə başçısının uğurlu rəhbərliyi, hərbi sahədə yeniliklərin tətbiq edilməsi, hərbi texniki bazanın möhkəmləndirilməsi tarixi zəfərin, tarixi Qələbənin qazanılmasında əsas amil oldu.



**İlham Əliyev: "Heydər Əliyev həm sovet dövründə, həm müstəqilliyin ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir"**

### 1969-CU İL - AZƏRBAYCANIN YENİ TARİXİNDƏ DÖNÜŞ İLİ

Qeyd edək ki, Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Hakimiyyətdə olduğu 35 il müddətində ulu öndər xalqının tarixi mənafeyi uğrunda əzmlə mübarizə aparmış, ictimai-siyasi proseslərdə daim özünü real güc mərkəzi kimi göstərmişdir.Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlaması, Azərbaycanın isə onun simasında özünə yeni fəaliyyət metodlarına malik rəhbər tapması hər ikisinin yüksəlişinin, xalqın da xoşbəxtliyinin başlanğıcı oldu! Azərbaycana rəhbərliyə başladığı gündən hər bir vətəndaş, bütövlükdə xalq ona arxa duran, mənafeyini qoruyub müdafiə edən, haqsızlıq və qanunsuzluqla barışmayan böyük qəlbli insanın hakimiyyətə gəldiyini düşünürdü. Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin rəhbərliyi altında respublikada həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyin təmin olunması üçün zəmin hazırladı. Ulu öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrləri xatırlayarkən deyirdi: "Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı".Azərbaycan sosial-iqtisadi vəziyyətinə görə SSRİ-nin tərkibində olan 15 respublika sırasında sonuncu yerlərdə qərarlaşırdı. Bütün göstəricilər üzrə belə idi. Amma Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra ilk 5 illikdə inkişaf baş verdi. Belə ki, 1970-1982-ci illərdə respublikada 250 yeni müəssisə, istehsalat və sex tikilmiş, neftayırma sənayesi müəssisələri tamamilə yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa olunmuşdur. Nəticədə, göstərilən müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmışdır. 1970-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. Əsaslı dövlət vəsaiti qoyuluşunun 1 manat artımı hesabına əlavə olaraq 3,5 manatlıq məhsul alınmışdır. Göstərilən dövrdə milli gəlir 2,6 dəfə çoxalmışdır. Azərbaycan büsbütün yenidən tikilib qurulmuş, kənd və qəsəbələr salınmış, fabrik və zavodlar tikilmiş, yaşayış məntəqələrinin siması tamamilə dəyişmişdir. Yetmişinci illərədək Azərbaycan kəndi əsasən çiy kərpicdən və palçıqdan tikilmiş komalardan ibarət idi. Kəndlinin gəliri az olduğundan güzəranı ağır keçirdi. Kənd təsərrüfatının yüksəlişi bu sahədə inqilabi dəyişiklik yaratdı. Yeni texnika və aqrotexniki qaydaların genişmiqyaslı tətbiqi hesabına əmək məhsuldarlığı və məhsul istehsalı bir neçə dəfə artdı, təsərrüfatların və əməkçilərin gəliri qat-qat çoxaldı. Kəndlinin güzəranı və məişət şəraiti dəyişdi. Azərbaycan kəndi palçıq komalardan qurtularaq simasını dəyişdi. O vaxtdan həyatında minik avtomobili, ikimərtəbəli ağ mişar daşından evi, məişətində hər növ elektrik cihazları olan kəndli ailələri Azərbaycan kəndlisini xarakterizə edən başlıca əlamətə çevrildi. Bu gün elə bir kənd tapılmaz ki, orada Heydər Əliyev dövrünü xatırladan bir neçə "abidə"yə rast gəlinməsin. Ölkə paytaxtı Bakı şəhəri də yeni mikrorayonlar, park və xiyabanlar, küçə və meydanlar hesabına böyüyərək gözəlləşdi. "Gülüstan" və "Respublika" sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehmanxanaları, Əl oyunları sarayı və Olimpiya İdman Kompleksi, metro stansiyaları və digərləri həmin dövrdə tikilmiş, N.Nərimanova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə abidələr qoyulmuş, onlarla ədəbiyyat və incəsənət xadiminə, sənətkara fəxri adlar, dövlət mükafatları verilmişdir.Ulu öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, ordu sıralarında da milli kadrların yetişməsinə və yerləşməsinə çalışırdı. Ölkəyə birinci rəhbərliyi dövründə Azərbaycanda fəaliyyət göstərən hərbi məktəblərlə maraqlanan ümummilli lider orada nəinki təhsil alanların, hətta dərs deyənlərin sırasında belə azərbaycanlıların tək-tük olduğunu bilmişdi. Çox keçmədən Ulu öndərin təşəbbüsü və şəxsi himayəsi altında Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb açıldı. Tezliklə bu məktəb böyük şöhrət qazandı. Yeniyetmələr həvəslə burada oxumağa gəlir, sonra təhsillərini keçmiş SSRİ-nin müxtəlif ali hərbi məktəblərində uğurla davam etdirirdilər. Qarabağ uğrunda döyüşlərdə məktəbin müdavimləri böyük şücaət göstərdi, bir çoxu Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldü. Müstəqillik dövründə milli ordu quruculuğunda vaxtilə C.Naxçıvanski adına hərbi təmayüllü məktəbi bitirən zabitlərin əməyi böyük olmuşdur. Onlar bu gün də orduda ləyaqətlə xidmət edir, Heydər Əliyev ideyalarına sadiqliklərini nümayiş etdirirlər.

### ÜMUMMİLLİ LİDERİMİZİN İDEYALARINA ƏSASLANAN HEYDƏR ƏLİYEV FONDU

Bəli, bu gün Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsi dərindən öyrənilir, geniş təbliğ olunur. Xüsusilə də, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu prosesdə müstəsna rolunu xüsusi vurğulamaq gərəkdir. Ulu Öndərin zəngin mənəvi irsini, Onun azərbaycançılıq ideyasını gənc nəsillərə aşılamaq, Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil edir.Bir sözlə, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti ümummilli liderimizin ideyalarına əsaslanır, Azərbaycanın inkişafına, milli məqsədlərin həyata keçirilməsinə müstəsna töhfələr verir. Fondun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli - layiqli töhfəsini verir.

### HEYDƏR ƏLİYEVİN ARZULARINI GEÇƏKLƏŞDİRƏN QALİB LİDER İLHAM ƏLİYEV

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu, sadəcə, Heydər Əliyevin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 19 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur.Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən Şəxsiyyət kimi, eyni zamanda, Müzəffər Liderlik adını əbədi olaraq tarixə yazdı. O, son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytardı, tarixi ədaləti bərpa etdi. Məhz bu tarixi həqiqətləri incələdikdən sonra vurğulaya bilərik ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ardıcıl, uğurlu siyasəti nəticəsində dövlətçilik ənənələrimiz yenidən dirçəldi və inkişaf etməyə başladı. Eyni zamanda, bu gün Azərbaycan dövləti Prezident İlham Əliyevin Liderliyi sayəsində dünyada qalibiyyət və zəfərlər yazan, öz gücü ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli ölkə olaraq tanınmaqdadır. Cənab İlham Əliyev sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədən saxlaya bilməz. O, siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Və bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanın yürütdüyü 30 illik işğalçılıq, talançılıq, varvarlıq, terrorçuluq siyasətini əməli şəkildə cəzalandırdı.

**RƏFİQƏ KAMALQIZI**

# Körpələr evi-uşaq bağçası:

## təlim-tərbiyənin və sağlam mühitin ünvanı







Heydər Əliyev Fondu ölkəmizdə aparılan quruculuq işlərinə töhfə verməklə məqsədini reallaşdırır. Müxtəlif sahələrə eyni diqqəti ayırmaq və verilən vədləri vaxtında və yüksək keyfiyyətlə başa vurmaq çətin və məsuliyyətlidir. Həyatda özünü əməli fəaliyyətlə doğrultmaq, yüksək imic sahibi olmaq, ölkənin ictimai-siyasi, mədəni həyatında sözünü demək güclü iradə, böyük istedad və yaradıcılıq tələb etdiyi kimi, vətənə olan ülvi sevginin də olması vacib şərtdir. Məhz Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər bu dəyərlərə söykənir. "Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin real nəticələri göz qabağındadır. Bu, yüz mindən çox şagirdin təhsil şəraitinin yaxşılaşmasına xidmət edən yüzlərlə yeni məktəb binasının istifadəyə verilməsi, valideyn himayəsindən məhrum olmuş uşaqlara diqqət və qayğının göstərilməsi, müasir avadanlıqla təchiz edilmiş yeni tibb mərkəzlərinin inşası, gənc istedadların dəstəklənməsi, tarixi abidələrin bərpası, qədim mədəniyyət və incəsənətimizin təbliği və nəhayət, Azərbaycanın əsrlər boyu formalaşmış tolerantlıq ənənələrinin qorunub saxlanıldığı dünyəvi bir ölkə kimi dünyaya tanıdılmasıdır", - deyə Fondun Prezidenti Mehriban Əliyeva müsahibələrinin birində bildirmişdir.

**Mehriban xanım Əliyeva: "Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin real nəticələri göz qabağındadır"**



### GƏLƏCƏYİMİZ OLAN KÖRPƏLƏR VƏ UŞAQLAR VƏTƏNİMİZƏ LAYİQLİ VƏTƏNDAŞ OLARAQ FORMALAŞIR

Dinamik inkişaf edən Azərbaycanda gələcək nəslin sağlam böyüməsi, hərtərəfli inkişafı ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Bu istiqamətdə görülən mühüm tədbirlərin tərkib hissələrindən biri də məktəbəqədər təhsil müəssisələrindən olan uşaq bağçalarının və körpələr evləri şəbəkələrinin genişləndirilməsi, onların təlim-tərbiyə prosesində fəal iştirakının təmin olunmasıdır. Son illərdə respublikamızda onlarla uşaq bağçasının, körpələr evinin inşa olunması göstərir ki, Azərbaycan dövləti gələcəyimiz olan körpələrin və uşaqların vətənimizə layiqli vətəndaş kimi formalaşmalarını prioritet vəzifələrdən biri elan edir. Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı çərçivəsində respublika üzrə onlarla uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar inşa edilmiş və kommunal şərait yaxşılaşdırılmışdır. Müəssisələrdə kitabxanalar yaradılmış, onlar müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuş, əksər uşaq evləri və internat məktəblərində kompyuter avadanlığı quraşdırılmışdır. Uşaqların hərtərəfli inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədi ilə müəssisələrdə mütəmadi olaraq treninqlər keçirilir. Uşaq evləri və internat məktəblərində tərbiyə alan yeniyetmələrə vətənpərvərlik hissinin aşılanması, onların istirahətinin və asudə vaxtlarının səmərəli təşkili məqsədi ilə Heydər Əliyev Fondu ardıcıl olaraq kütləvi tədbirlər, festivallar, müsabiqələr keçirir, müəssisələrdəki özfəaliyyət kollektivlərinə, musiqi, rəqs, xalçaçılıq, rəssamlıq dərnəklərinə lazım olan köməyi əsirgəmir.

### UŞAQLARIN TƏLİM-TƏRBİYƏSİ FONDUN FƏALİYYƏT İSTİQAMƏTLƏRİNDƏNDİR

Fondun təşəbbüsü və dəstəyi ilə tikilə və ya təmir bərpa olunan körpələr evi-uşaq bağçalarının sayı artmaqdadır. Şamaxının Şəhriyar qəsəbəsində yerləşən 4 saylı körpələr evi-uşaq bağçası, Zərdab şəhər 2 nömrəli körpələr evi-uşaq bağçası, Saatlıda inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçası və s. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı" çərçivəsində inşa olunub. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Oğuz şəhərində inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçası da görülən işlərin davamıdır. Ərazisi 0,4 hektar, ümumi sahəsi 3013 kvadratmetr olan bağçada 32 otaq vardır. Binada 5 qrup otağı, həkim bölməsi, musiqi zalı, yeməkxana, mətbəx, gimnastika, kompüter, metodist və yardımçı otaqlar yaradılıb. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Oğuz rayonuna səfəri çərçivəsində körpələr evi-uşaq bağçasında görülən işlərlə tanış olublar. Məlumat verilib ki, bina müasir avadanlıqlar, inventar və mebel dəstləri, videomüşahidə, yanğın əleyhinə təhlükəsizlik, eyni zamanda, mərkəzləşdirilmiş istilik sistemləri ilə təchiz olunub. Həyətyanı sahədə abadlıq və yaşıllaşdırma işləri görülüb, müasir işıqlandırma sistemi yaradılıb və uşaqlar üçün 5 ədəd söhbətgah quraşdırılıb.

Göründüyü kimi, Azərbaycanda bütün sahələrdə olduğu kimi, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə yüksək diqqət və qayğı göstərilir. Müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu xüsusi töhfələr verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan çox mühüm rol oynayır. Müasir standartlara uyğun qurulan bağçalarda azyaşlıların təlim-tərbiyəsi və onların sağlam vətəndaş kimi yetişmələri üçün hər cür şərait var. Uşaqların günün əsas hissəsini burada keçirmələri məktəbəqədər təhsil müəssisəsində təlim-tərbiyənin keyfiyyətinə, sağlam ab-havanın yaradılmasına xüsusi diqqət yetirilməsini tələb edir. Əlbətdə ki, "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı Azərbaycanın uğurlu gələcəyinə hesablanıb. Görülən işlər ölkəmizdə uşaqların sağlam və intellektli böyümələrini təmin edir.Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# “Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasında jurnalistlər böyük rola malikdirlər”



## Jurnalistlər üçün təlim keçirilib



**Dekabrın 6-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə jurnalistlər üçün ”Azərbaycanın xarici siyasət gündəmi” mövzusunda təlim keçirilib. Qurumdan SİA-ya verilən məlumata görə, təlim Azərbaycanın xarici siyasət gündəmində baş verən son hadisələrin, əməkdaşlıq perspektivlərinin bu sahədə ixtisaslaşmış jurnalistlərə çatdırılması və onların bu xarici siyasətlə bağlı media fəaliyyətlərinə istiqamət verilməsi məqsədini daşıyır. Təlimdə 25 media təmsilçisi iştirak edib.**

Təlimin açılış mərasimində çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycan xarici siyasət gündəminə dair jurnalistlərlə mütəmadi görüşlərin keçirilməsinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, 44 günlük müharibədən sonra regionda yeni reallıqlar formalaşıb və Azərbaycanın səsinin, xarici siyasət kursunun beynəlxalq ictimaiyyətə çatdırılmasında jurnalistlər böyük rola malikdirlər.



Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov təlimin dünyada və ölkədə baş verən hadisələri, ictimai-siyasi xarakterli prosesləri təhlil edərək cəmiyyətə çatdıran media nümayəndələrinin bu istiqamətdə praktiki bacarıqlarının artırılması baxımından xüsusi əhəmiyyət kəsb etdiyini deyib. O, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə bu ilin yanvar ayında ”Müharibədən sonrakı reallıqlar və media” mövzusunda keçirilən 3 günlük təlimin də Azərbaycan jurnalistlərinin bu istiqamətdə peşəkarlığının artırılması baxımından ciddi praktik addım olduğunu vurğulayıb: ”Vətən müharibəsində qazandığımız qələbə bütün sahələrdə olduğu kimi media ictimaiyyətinin də işində əsaslı dönüş yaratmışdır. Qələbənin əldə olunmasında istər ön, istərsə də arxa cəbhədə fədakarlıq göstərmiş hər bir insanın həyat hekayəsini, möhtəşəm Zəfərimizə verdiyi töhfəni işıqlandırmaq, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərini, ”Böyük Qayıdış”ı geniş auditoriyaya çatdırmaq Azərbaycan jurnalistikasının əsas mövzusudur. İndi Azərbaycan mediası öz işini qalib ölkənin və müasir çağırışların tempinə uyğunlaşdırmaq üçün yeni konseptual yanaşma sərgiləməlidir”.

Təlimçi qismində BMTM-in ixtisaslaşmış ekspertləri iştirak ediblər. BMTM-in İdarə Heyətinin üzvü Esmira Cəfərova ”Ermənistanla Azərbaycan arasında nizamlama prosesi”, BMTM-in şöbə müdiri Cavid Vəliyev ”Azərbaycan-Türkiyə əlaqələri” və BMTM-in aparıcı məsləhətçisi Nağı Əhmədov ”Orta Asiyada son dinamikalar, Orta Dəhliz” mövzusunda təlim keçiblər, iştirakçıların suallarını cavablandırıblar. Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

# Türkiyəli siyasi ekspert:
## “Azərbaycanın memarı Ulu Öndər Heydər Əliyev”

**“Müstəqillik əldə etdikdən sonra vətəndaş müharibəsi təhlükəsi, Dağlıq Qarabağ müharibəsi və iqtisadi böhranlarla mübarizə aparan Azərbaycana rəhbərlik edən, ölkəsinin üzünə sabitliyin, iqtisadi inkişafın qapılarını açan Ulu Öndər Heydər Əliyevi hörmət və minnətdarlıqla yad edirəm. O, müstəqillik əldə etdikdən sonra vətəndaş müharibəsi təhlükəsi, Dağlıq Qarabağ müharibəsi və iqtisadi böhranlarla mübarizə aparan ölkəsinə rəhbərlik edib, xilaskar rolunu oynayıb, ”lider” adına layiq görülür”. Bu sözləri SİA-ya açıqlamasında türkiyəli politoloq Hakan Aktürk deyib.**

Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin xalqına xidmət və Azərbaycan uğrunda mübarizə ilə keçən 80 illik həyatı 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan Muxtar Respublikasında başlayıb: ”1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirən Heydər Əliyev sonralar Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olsa da, İkinci Dünya Müharibəsinin başlaması ilə orada təhsilini başa vura bilməyib.

Heydər Əliyev 1941-1944-cü illərdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Komissarlığının Gizli Arxiv İdarəsinin müdiri, Naxçıvan Xalq Komissarlığı Sovetinin şöbə müdiri vəzifələrində çalışıb. Uğurlu işi və analitik qabiliyyəti ilə rəhbərlərinin diqqətini çəkən Heydər Əliyev 1944-cü ildə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinə (DTK) işə qəbul olunur. DTK-da karyerasını davam etdirən Əliyev 1967-ci ildə Azərbaycan DTK-nın sədri təyin edilmiş və ona general-mayor rütbəsi verilmişdir.



Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi seçilib və 1982-ci ilə qədər bu vəzifədə Azərbaycana rəhbərlik edib. 1982-ci ildə Moskvaya dəvət edilərək Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilən Əliyev SSRİ rəhbərliyində söz sahibi olan 19 nəfərdən biri olub və sədrin birinci müavini təyin edilib. O, 1987-ci ildə SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və SSRİ katibi Mixail Qorbaçovun siyasətinə etiraz edərək istefa verib, 1990-cı ildə Azərbaycana qayıdıb”.

Hakan Aktürk sözlərinə belə davam edib: ”SSRİ-nin dağılması zamanı ölkəsinin problemlərinə biganə qalmayan Əliyev yenidən siyasi səhnəyə çıxıb və 1990-cı ildə həm Azərbaycan SSR, həm də Naxçıvan Muxtar Respublikasının deputatı seçilib. 1991-ci ildə ermənilərin Dağlıq Qarabağdakı ərazi tələblərinə qarşı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz edərək Kommunist Partiyasından istefa verən Heydər Əliyev parlament xarakteri daşıyan Naxçıvan Ali Sovetinin sədri seçildi müvafiq qanunlara uyğun olaraq Azərbaycan Ali Soveti Sədrinin müavini.

Azərbaycan müstəqilliyini elan edəndə Naxçıvanda vəzifəsini davam etdirən Heydər Əliyev 1992-ci il noyabrın 21-də bu gün hakimiyyətdə olan Yeni Azərbaycan Partiyasını yaradıb. Heydər Əliyev vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmaq üçün xalq tərəfindən Bakıya dəvət edilmiş və 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilmişdir.

O, 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə qalib gələrək prezident oldu və ölkəsinin problemlərinin həlli üçün bütün gücü ilə fəaliyyətə başladı. 1991-ci ildə başlayan müharibənin davam etdiyi və ermənilərin Azərbaycan torpaqlarını işğal etdiyi Dağlıq Qarabağda ağır bir dövrdə prezident seçilən Əliyev ordunu gücləndirməklə işə başlayıb.

Silah və sursat texnikası təkmilləşdirilmiş Azərbaycan ordusu əks hərəkətlər edərək Ermənistan ordusunun hücumlarının qarşısını alıb. 1994-cü il mayın 4-5-də Bişkekdə Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında protokol imzalandı, şiddətli toqquşmalar dayandırıldı. Ulu Öndər diplomatik manevrlərlə idarəni qanunsuz olaraq ələ keçirmək istəyən bəzi qüvvələrin üsyanlarını yatırtdı, xalqın dəstəyi ilə daxili tələtümlərə son qoydu və ölkədə sabitləşmə prosesinə addım atmağa imkan verdi.

Heydər Əliyev 7 ölkədən 11 şirkətlə Azərbaycanın ən böyük neft yatağı olan Azəri-Çıraq-Günəşli (AÇG) hövzəsinin istismarını və neftin gətirilməsini nəzərdə tutan ”Əsrin müqaviləsi”ni imzalamaqla ölkənin iqtisadi inkişafının əsasını qoydu. Onun prezidentliyi dövründə ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən konstitusiyanı referendum yolu ilə qəbul etməklə ölüm hökmünü ləğv etdi.

Rəhbərliyi dövründə türkdilli dövlətlərlə, xüsusilə Türkiyə, Rusiya, ABŞ və Avropa ölkələri ilə yaxşı əlaqələr quran Heydər Əliyev beynəlxalq aləmdə ölkəsinin yerini daha da möhkəmləndirdi. O, 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə 76,1 faiz səs toplayaraq yenidən prezident seçilib. O, 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə də namizəd olub, lakin səhhətində yaranan problemə görə namizədliyini İlham Əliyevin xeyrinə geri götürüb. Heydər Əliyev 2003-cü il dekabrın 12-də müalicə aldığı ABŞ-da vəfat etmiş, dekabrın 15-də Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir”.

***Ayşən Vəli***

# Mükəmməl ordu quruculuğu strategiyası

**Milli-mənəvi, mental-əxlaqi dəyərlərə malik olan Azərbaycan xalqı tarixi kimliyini əməlində, tarixi hadisələrin gedişində təsdiqləyib. 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması, məhz onun tarixi kimliyini, mübarizələrlə dolu həyatında mücadilə apararaq azadlıq eşqini reallaşdıran bir xalq olaraq bir daha təsdiqləmiş oldu. Ulu Öndər Heydər Əliyevin vurğuladığı kimi, "Xalqımız çoxəsrlik tarixində milli mənliyini, torpağını, Vətəni qoruyub saxlamağa qadir olduğunu dəfələrlə sübut edibdir".Bu gün Azərbaycan xalqı torpaqlarını işğaldan azad etmiş xalq olaraq, qürurla, məğrurluqla yaşayır. Otuz ilə yaxın bir zamanda erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan bu gün yeni bir dövrünə qədəm qoyub.**

Azərbaycan bütün dünyaya, məsafəsindən, qitəsindən asılı olmayaraq, hər bir kəsə öz böyüklüyünü, gücünü göstərdi. Əlbəttə ki, ordumuzun gücü, xalqımızın qəhrəmanlığı, xalq-iqtidar birliyi və ən əsası da Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün dünyanı təəccübləndirən 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazdıq.Öz azadlığı, müstəqilliyi yolunda mübarizə aparan, mücadilə edən xalqımızda qələbəyə inam sonsuz idi. Vətən yolunda öz canından keçməyi bacaran, qanı ilə torpaq suvaran vətənpərvər oğulların ərazisi düşmən tapdağında qala bilməzdi. Xüsusilə də Böyük Sərkərdəlik, Liderlik bacarığına malik dövlət başçımızın rəhbərliyi ilə Milli Ordumuzun qələbəsi qaçılmaz idi. Prezident, Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi və böyük Sərkərdəliyi sayəsində torpaqlarımız işğalçılardan azad edildi. Əlbəttə ki, Azərbaycan Ordusunun gücü dövlətin qüdrətinin nümunəsidir.

Azərbaycan Ordusu ən müasir tələblərə cavab verən ordudur. Bu, şübhəsiz ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan ordu quruculuğu siyasətinin məntiqi nəticəsidir. Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri də onun silahlı qüvvələridir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında azadlıq və müstəqillik ideyalarının tam təmin olunması naminə hazırlanan ordu quruculuğu prosesinə xüsusi önəm yetirilirdi.

## "BİZ CƏMŞİD NAXÇIVANSKİ ADINA HƏRBİ LİSEYİN İLK BÜNÖVRƏ DAŞLARINI QOYANDA O BİZİM ÜÇÜN NƏZƏRİYYƏ DEYİLDİ, BÖYÜK GƏLƏCƏYƏ, AZƏRBAYCANIN GƏLƏCƏYİNƏ BAXIŞ İDİ"

Sovet dövründə, Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanda hərbi-təşkilati işlər bir neçə istiqamətdə aparılırdı. Azərbaycan gənclərinin hərbi xidmətə hazırlanması, onların xüsusi ixtisaslı hərbi hissələrə göndərilməsinə nail olunması məqsədi ilə ardıcıl işlər görüldü. Sovet dövründə azərbaycanlı gənclərin əksəriyyətinin arxa xidmət hərbi hissələrinə göndərilməsinin əsas səbəblərindən biri kimi onların rus dilini zəif bilməsi göstərilirdi. Hər il Azərbaycandan təxminən 60 min gənc hərbi xidmətə çağırılırdı. Lakin onların çox az hissəsi xüsusi ixtisaslar öyrədən hərbi hissələrə yola salınırdı. Gənclərin böyük əksəriyyəti isə tikinti və xidmət hərbi hissələrinə göndərilirdi. Belə olduğu halda, Azərbaycanda gənclərin hərbi xidmətə hazırlanmasına yeni tələblər irəli sürüldü. İlk növbədə, respublika məktəblərində rus dilinin tədrisinə diqqət artırıldı, Azərbaycan Dövlət Pedaqoji İnstitutu nəzdində ibtidai hərbi hazırlıq müəllimləri hazırlayan fakültə açıldı və hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi. Xüsusi olaraq vurğulayaq ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Sovet dövründə diqqət yetirdiyi məsələlərdən biri də SSRİ Silahlı Qüvvələri tərkibində azərbaycanlı zabitlərin məsul vəzifələrə irəli çəkilməsi məsələsi idi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Bakıda iki ali hərbi məktəb var idi. Biri Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi, digəri isə Bakı Ali Hərbi Dənizçilik Məktəbi. Bu məktəblərin hər ikisi İttifaq miqyasında sayılıb-seçilən məktəblərdən idi və təhsil almaq üçün İttifaqın ən müxtəlif şəhərlərindən bu məktəblərə axışıb gəlirdilər. Sovet dövründə milli zəmində aparılan hərbi-təşkilati işin zirvəsi Azərbaycanda general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbinin açılması oldu. C.Naxçıvanski adına Hərbi Lisey Ulu Öndərin diqqət və qayğısı ilə qısa vaxt ərzində ən müasir hərbi təhsil müəssisəsinə çevrildi. Nəticədə orduda peşəkar hərbçilərin sayı da artdı. Bu təhsil ocağını bitirən neçəneçə gənc Bakının ali hərbi məktəbləri ilə yanaşı, keçmiş SSRİ-nin ali hərbi məktəblərində hərbçi peşəsinə yiyələndilər. Heydər Əliyev deyirdi: "Biz Cəmşid Naxçıvanski adına hərbi liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm. Bilirsiniz, sizə səmimi deyirəm, C.Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax, bu cür baxacağam".

> "Ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır!"
>
> *Heydər Əliyev*



İstər C.Naxçıvanski adına Hərbi Liseyin təşkil edilməsi, istərsə də sovet dövründə azərbaycanlı gənclərin hərbi işə cəlb edilməsinin hansı tarixi əhəmiyyətə malik olduğu XX əsrin sonlarında əyani şəkildə aydın oldu. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb oldu. Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı.Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ermənistan ilə müharibə vəziyyətində idi. O zaman Azərbaycana rəhbərlik edən şəxslər Silahlı Qüvvələr yarada bilmədilər. 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması haqqında qanunun qəbul edilməsinə baxmayaraq, o zamankı respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün ciddi səy göstərmirdi. Yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və Azərbaycan Respublikasının Prezidenti seçilməsi vəziyyəti kökündən dəyişdi, respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi. Atəşkəsin əldə edilməsindən sonra ordu quruculuğuna diqqət daha artdı. Heydər Əliyev atəşkəsin elan olunmasını ordu quruculuğunun sürətləndirilməsi üçün münasib imkan kimi qiymətləndirdi. Ulu Öndər birmənalı şəkildə bildirdi ki, Azərbaycanda ordu quruculuğu kampaniya xarakteri daşımamalıdır. Atəşkəs dövründə ordu quruculuğunun uğurlu aparılması üçün Heydər Əliyev dövlətin strateji siyasətini müəyyənləşdirdi, milli zabit kadrlarının hazırlanması üçün mükəmməl bir hərbi təhsil sistemi formalaşdırdı, ordunun maddi-texniki bazasının təkmilləşdirilməsi daimi diqqət altına alındı.Məhz Ulu Öndər Heydər Əliyevin 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması, 20 avqust 2001-ci ildə respublikamızda fəaliyyət göstərən hərbi məktəblərin statusunun artırılması və nəhayət, 17 avqust 2002-ci ildə Silahlı Qüvvələrə Yardım Fondunun yaradılması haqqında imzaladığı fərmanlar bu istiqamətdə əsaslı dönüş yaratdı.

## ZAMAN VƏ MƏKAN AMİLLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏ ETMƏKLƏ BÖYÜK ZƏFƏRƏ İMZA ATDIQ

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti son 19 ildə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoyub. Prioritet elan edilən ordu quruculuğu sayəsində ərsəyə gələn nizami Azərbaycan Ordusu dövlətçiliyimizin qarantı olmaqla yanaşı, ölkəmizin dünya miqyasında maraq və mənafeyinin, milli təhlükəsizliyinin lazımi səviyyədə qorunmasını təmin etməyə imkan yaratmış oldu. Respublikamızda müdafiə sənayesi kompleksinin yaradılması, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, ordu birləşmələrimizin ən yeni hərbi texnika və avadanlıqlarla təchiz edilməsi, şəxsi heyətin döyüş qabiliyyətinin və peşəkarlıq səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması qarşıya qoyulan vəzifələrin məzmunu ilə düzgün əlaqələndirildi, zaman və məkan amillərindən səmərəli istifadə edilməklə böyük ZƏFƏRƏ addım-addım yaxınlaşdırmaq mümkün oldu.Uzun illər ərzində bütün beynəlxalq tədbirlərdə və platformalarda Azərbaycan həqiqətlərini çatdırmaq istiqamətində böyük işlər aparılmasına baxmayaraq heç bir səmərəsi olmadı. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi. Beləliklə, münaqişənin həlli üçün hüquqi zəmin yaradılmışdır. Məqsədyönlü səylər nəticəsində münaqişə ilə bağlı, Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumat çatdırıldı.

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. - 2020-ci ilin 10 noyabr tarixində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu, onu göstərir ki, Azərbaycan müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanmış oldu. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik bir quruma çevrilib. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır.

## QAZANILAN ZƏFƏR BÜTÜN TÜRK DÜNYASININ QƏLƏBƏSİ OLARAQ DÜNYAYA MESAJ OLDU

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir Yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Qəhrəmanlıq dastanını yazan rəşadətli Ordumuzun Vətən müharibəsində nümayiş etdirdiyi hərb mədəniyyəti, beynəlxalq və humanitar qanun və normalara riayət etməsi dünya hərb tarixinə örnək səhifələr kimi yazıldı. Rəşadətli Azərbaycan Ordusu düşmənin ən möhkəm istehkamlarını qəhrəmancasına darmadağın edərək, düşmən tapdağında olan ərazilərimizi, 28 il həsrət qaldığımız qədim Şuşamızı öz canı və qanı bahasına azad etdi. Həmçinin, bir güllə atmadan, bir şəhid vermədən Ağdam, Kəlbəcər və Laçın işğaldan azad edildi. Düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradı.

Prezident İlham Əliyevin dediyi kimi, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Bu gün hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malik güclü ordumuz var ki, bu ordunun formalaşması əlbəttə ki, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Heydər Əliyev siyasətini uğurla davam etdirməsi Azərbaycan Ordusunun yalnız bölgədə deyil, bütünlükdə dünyanın ən müasir orduları arasında yer tutmasına imkan verib.

***Zümrüd BAYRAMOVA***

# Sülhməramlıların, yoxsa ermənilərin hayı?

## Azərbaycanın ekoloji təftişi "hay"ların ritorikasını dəyişdi

**Ermənistan ikibaşlı oyunlarını davam etdirir. Gah Rusiyanın rəhbərlik etdiyi KTMT-nin gücündən istifadə etmək üçün Putinə dil tökür, gah Pelosini okeanın o tayından sürüyərək İrəvana gətirir ki, Moskvaya gözdağı versin, gah İrana meyllənir, gah da Fransanın gözqaş işarəsinə "naz" atır. Sadəcə, bir qabiliyyəti yoxdur, regionda özünün başlatdığı və ağır məğlubiyyətə düçar olduğu müharibədən sonra ona uzadılan əli tutmaq. Bunda da çətinlik çəkir. Niyə? Çünki, sözünün ağası deyil, başqalarının diqtəsi ilə bu günə qədər yaşayıb və bundan sonra da müstəqil yaşamaq iqtidarında deyil.**






İrəvan əvəzində baş verən hadisələrdən yanlış nəticələr çıxarmaqdadır. Yəqin ki, ötən şənbə günü Şuşa-Xankəndi yolunda baş verən hadisələrdən xəbərdarsınız. Ermənistanın hələ də ümidlə baxdığı, amma heç vaxt da özününküləşdirə bilməyəcəyi Qarabağda separatçıların əli ilə yeraltı sərvətlərimizi talaması, o cümlədən üçtərəfli bəyanatın maddələrinə uyğun olaraq müvəqqəti yerləşdirilmiş sülhməramlıların nəzarət etməli olduğu ərazilərdə baş verən hadisələr ölkə ictimaiyyətinin əsəblərini tarıma çəkdi. Bu dəfə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, İqtisadiyyat Nazirliyinin və "Azərgold" Qapalı Səhmdar Cəmiyyətinin nümayəndələrinin bölgəyə gəlməsi və cavabdeh şəxslərdən baş verənlər barədə hesabat istəməsi Ermənistan cəmiyyətində böyük təlaşa səbəb oldu. Ermənistan rəsmiləri Laçın dəhlizinin 3 sata qədər qapalı qalmasını "ermənilərə qarşı soyqırımı törədilir" yalanını dünyaya car şəkdilər. Baş verənləri yeni müharibə kimi qələmə verdilər. Separatçılar isə bunu "suveren dövlətin ərazilərinə müdaxilə" adlandırdılar. Halbuki, Ermənistan və ermənilər sadəcə, dünyanın yenə lal və kar, o cümlədən kor olduğunu düşünürlər. Çünki hələ də ötən əsrin ab-havasındadırlar. İkinci erməni dövlətini yaratmaq iştahasındadırlar. Amma

Amma indiyə qədər himayəsində olduqları Moskvanın onlardan üz çevirdiyinin fərqində deyillər. Rusiya indi öz hayındadır, bu "hay"larla yeni işlər quracaq vəziyyətdə deyil. Türklər demiş, dəngələr dəyişib, dünənki hegemon dövlətlər bu gün başını qorumağa yer axtarır. Bəli, ermənilər də bunu deyirlər. Bildirilər ki, Kreml konkret olaraq Azərbaycan-Türkiyə tandeminə üz tutur və erməni dövlətlərinə arxa çevirir. Rusiya artıq açıq şəkildə Qarabağın Azərbaycanın tərkibində olmasına qəbul edib. Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrovun cümə axşamı keçirdiyi mətbuat konfransında "Alma-Ata bəyannaməsi çərçivəsində münasibətləri normallaşdırmaq üçün Ermənistan və Azərbaycanın Praqada razılaşması ilə məsələ asanlaşdı" bəyanatı açıq və birmənalı şəkildə göstərir. Lavrov əlavə edib ki, bəyannamədə Qarabağın birmənalı olaraq Azərbaycanın bir hissəsi olduğu bildirilir: "Əbəs yerə deyil ki, Ermənistan rəhbərliyi son vaxtlar statusdan o qədər də yox, Qarabağda erməni əhalisinin hüquqlarının təmin edilməsinin zəruriliyindən danışır. Azərbaycan tərəfi buna hazırdır, onlar bunu müzakirə etməyə, Azərbaycanın digər vətəndaşlarının malik olduğu hüquqların bütün təminatlarını verməyə hazırdırlar".

Ermənistan bu yanaşmanı "maskalar cırıldı" kimi qəbul edib: "Lavrov elə adam deyil ki, Putinlə razılaşmadan nəsə deyə bilsin. Bu o deməkdir ki, Kreml konkret olaraq Azərbaycan-Türkiyə tandeminə üz tutur və erməni dövlətlərinə arxa çevirir. Axı, xatırladığımız kimi, son iki ildə Moskva Putin və Lavrovun ağzı ilə Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsinin zəruri olduğunu irəli sürdü və Qarabağın statusu məsələsini unutdu. Etiraf etmək lazımdır ki, indi Moskva mövqeyini dəyişib.

İrəvanda düşünürlər ki, Moskva indi Azərbaycan və Türkiyə meydanında oynadığından Putin Lavrova nə deyirsə, o da edir: "İndi Lavrov Paşinyana hədsiz qəzəblidir. Moskvanın həqiqətən də İrəvana qəzəblənməli bir səbəbi var. Birincisi, Putin Paşinyanın İrəvanda KTMT-nin yekun bəyannaməsini imzalamaqdan imtina etməsinə çox qəzəblənib. Amma burada hər şey qaydasındadır və ölkəmizin cəmiyyəti əksər hallarda Baş nazirin qəti və prinsipial mövqeyini dəstəkləyir. Əgər KTMT-yə üzv dövlətlərin başçıları İrəvana gəldikdən sonra da Azərbaycanın Ermənistanın ərazi bütövlüyünə təcavüzünə aydın siyasi qiymət verə bilmirlərsə və müvafiq olaraq bu təcavüzə cavab verə bilmirlərsə, onda Paşinyan niyə belə bir kağıza imza atmalıdır? Sadəcə Putin və KTMT-nin imicinə görə? Yaxşı, sizin imiciniz təhlükədədir və bizim üçün bu, ölkənin və onun əhalisinin təhlükəsizliyi məsələsidir. Ona görə də Paşinyan ağıllı hərəkət etdi və ölkə daxilində ona dəstək oldu".

Bəs Paşinyanın getdikcə daha çox Qərbə doğru sürüklənməsi Rusiyanın xoşuna gəlirmi? Əlbəttə, Paşinyanın öz ərazisində Aİ missiyasına razılıq verməsi Moskvanın xoşuna gəlmir, çünki ruslar özləri orada möhkəmlənmək istəyirdilər. Bəs Ermənistan-Azərbaycan sərhədində Rusiyanın digər missiyası ermənilərə nə verəcəkdi? Axı onlar ermənilərin "müttəfiqi" olmaqla yanaşı, Azərbaycan ordusunun hərəkətlərini dəstəkləyirlər.

Bundan əlavə, Rusiya ehtiyat edir ki, Ermənistan öz ərazisində Aİ-nin mülki missiyasına razılıq verməklə eyni şəkildə hərbi missiyanı, məsələn, Fransa ordusunu və ya hətta NATO-nu birbaşa dəvət edə bilər. İrəvanın Paris və Vaşinqtonla əlaqələrini genişləndirməsi, amplitudasını artırması Kremlin də ürəyincə deyil. Yeri gəlmişkən, ABŞ dövlət katibinin Qafqaz üzrə danışıqlar üzrə baş müşaviri, səfir Filip Riker İrəvanda oldu. Bu da Moskvanın ürəyində onsuz da çox olan xalların sayını artırdı. Həm də Lavrovun ağzı ilə danışan və erməniləri qorxudan Moskvanı qəzəbləndirir. Rusiyanın davranışını nəzərə alsaq, həm Qarabağın statusu məsələsində hər şey itirilib. Ermənistan buna da razıdır, təki Kremlin həddindən artıq sərt himayəsindən qurtulsun. Bugünkü Ermənistan Köçəryan və Sarkisyan dövrünün Ermənistanı deyil, daha çox Qərbə meyllənmiş bir vassal ölkədir.

Ermənistanda siyasətçilər, indiki və keçmiş hakimiyyət nümayəndələrinin yekdil qənaəti budur ki, Paris, Aİ və Vaşinqtondan gələn təkan Ermənistanın düzgün istiqamətdə - Rusiyadan uzaqlaşaraq, ABŞ səfiri Treysinin dediyi kimi, daha parlaq gələcəyə doğru irəlilədiyini deməyə əsas verir.

"Mülki müqavilə" partiyasından olan deputat Ovik Aqazaryan deyib Laçın dəhlizinin bağlanması qeyri-adi bir şey deyildi: "Bu hallar təkrarlanacaq. O, yolu bağlayanlar bu gün ekoloji fəallar idi, sabah başqa bir qurumun nümayəndələrinin olacağına əminik. Əgər azərbaycanlıların dəhlizdən silah və sursat daşındığından şübhələri varsa, bu məsələləri Rusiya sülhməramlıları ilə aydınlaşdırmalıdırlar. Azərbaycanlılar bu cür hərəkətləri ilə ermənilərə çətinlik yaratmağa, onları Qarabağdan qovmağa çalışırlar. Bu kimi problemlərin həlli isə bağlı Rusiya sülhməramlılarının mandatı çərçivəsində müvafiq qiymət verməli, onlara cavab verməliyik". Göründüyü kimi, ermənilərin məqsədi Azərbaycanla Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarını üz-üzə qoymaqdır.

Qarabağ separatçılarının keçmiş "müdafiə naziri" olmuş topal Seyran Ohanyan isə bir fərqli düşünür. O qeyd edib ki, "Qarabağdakı "hakimiyyət" Ermənistan rəhbərliyinə arxalana bilməz, Rusiya və Rusiya sülhməramlı qüvvələrinin komandanlığı ilə buna uyğun işləməlidir. Rusiya və Rusiya sülhməramlıları ilə əməkdaşlığın sərhədləri tapılmalıdır. Qoy dünya "Qarabağ ordusu"nun rolunu nədən ibarət olduğunu anlasın".

Azərbaycanda sepatratçılığın sona çatdığına az adam inanar, xüsusən də erməni separatizminin, sülhməramlıların arxasında gizlənib qətllər, təxribatlar törətməyə hazır olan xəyanətkarların. Biz isə hər kəsin yerini özünə göstərməliyik, sülhməramlılara fəaliyyət istiqamətlərini, ermənilərə isə Ermənistana gedən yolu

**V.VƏLİYEV**

RAKURS



## MEDİA könüllüləri mükafatlandırılıb

İl ərzində fəallığı və təşəbbüskarlığı ilə fərqlənmiş MEDİA könüllüləri diplomla təltif edilib. SİA-nın AZƏRTAC-dan əldə etdiyi məlumata görə, bu barədə Medianın İnkişafı Agentliyindən məlumat verilib.

Bildirilib ki, MEDİA könüllüləri dekabrın 5-də keçirilən Azərbaycan Könüllülərinin V Həmrəylik Forumunda iştirak ediblər. Forum çərçivəsində il ərzində fəallığı və təşəbbüskarlığı ilə fərqlənmiş gənc könüllülər, eləcə də 5 MEDİA könüllüsü diplomla təltif olunub.

## "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinə 66 dəyişiklik edilib

Milli Məclis "Siyasi partiyalar haqqında" yeni qanun layihəsini ikinci oxunuşda təsdiqləyib. Belə ki, qanun layihəsi Parlamentin dekabrın 6-da keçirilən plenar iclasının gündəliyinə daxil




edilib. Yeni Qanun partiyaların fəaliyyətinin təkmilləşməsi və dinamik hüquqi tənzimlənməsi məqsədi daşıyır. Yeni layihədə çoxpartiyalılıq demokratiyanın başlıca göstəricisi kimi təsbit olunub.

Qanun layihəsinin hazırlanması zamanı Avropanın qabaqcıl ölkələrinin təcrübəsi, milli-mənəvi dəyərlərin qorunub saxlanması, ölkədə mövcud olan siyasi sistem nəzərə alınıb. Həmçinin Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi ilə bağlı tövsiyələri nəzərdən keçirilib. Layihənin hazırlanması ilə əlaqədar ekspert komissiyası yaradılıb və bu komissiya tərəfindən 20 ölkənin bu sahədəki təcrübəsi öyrənilib. Bununla yanaşı, siyasi partiyalar tərəfindən daxil olan təkliflərə diqqət yetirilib. Milli Məclisin siyasi partiyalara müraciətindən sonra 47 siyasi partiyadan 250-dən çox təklif daxil olub. Sənədin yenilənməsi zamanı layihədə 66 dəyişiklik edilib.

# “Qardaş yumruğu” - Arazın o tayı da, bu tayı da...

### Tehrana verilən siqnaldan hansı nəticələri çıxarmaq olar?

Dekabrın 5-dən başlayaraq iki qardaş və müttəfiq dövlətlərin - Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin İranla sərhədlərdə yerləşən Astara, İmişli və Cəbrayıl rayonlarında "Qardaş yumruğu" adlı irimiqyaslı hərbi təlimləri keçirilir. Məhz təlimlərin keçirildiyini əks etdirən videogörüntülərdə ilk nəzərə çarpan və kifayət qədər diqqət çəkən süjet müttəfiq ölkələrə məxsus ordu hissələrinin Araz çayı üzərindən İran sərhədlərinə doğru panton körpünün salmaları, ağır texnikaların pontonlar üzərindən keçidi, eləcə də hərbi katerlərin çayın bir sahilindən digər sahilinə keçmələridir.



### Türkiyənin ordusu Azərbaycanın, Azərbaycanın da ordusu Türkiyənindir!

Lakin ən əsası, həmin kadrlar belə deməyə zəmin yaradır ki, əslində bir müddət əvvəl İranın Azərbaycanla sərhədlərdə keçirdiyi təhdid xarakterli hərbi təlimlərinə necə deyərlər, paralel, eləcə də yerində verilən cavabıdır. Artıq bu cür də qənaətə gəlmək olar ki, "Qardaş yumruğu" təlimləri Tehrana tərəf verilən siqnaldır ki, əgər bu ölkənin hərbi-siyasi dairələri Azərbaycanın ünvanına təhdidlərini davam etdirməyə davam etsələr, Bakının hərbi müttəfiqi Ankara həmin məsələyə müdaxilə edəcək. Məhz bu məqamda Azərbaycan Prezidenti İlham Əliyevin yaxınlarda səsləndirdiyi bəyanatı xatırlanır - Türkiyənin ordusu Azərbaycanın, Azərbaycanın da ordusu Türkiyənindir!

### İran tərəfi panton körpünü Araz üzərindən salarkən...

Onu da xatırladaq ki, İran tərəfi hərbi təlimlərini keçirərkən, daha dəqiq desək, panton körpünü Araz üzərindən salarkən həmin tərəf bu ölkənin daxilində axan Araz çayının qollarından biri olub. Müdafiə Nazirliyinin mənbələri isə bildiriblər ki, məhz həmin anlarda, sahilin əks tərəfində ən müasir silahlara və təchizatlara, xüsusilə İsrail istehsallı "Harop" dron-kamikadzelərə malik Azərbaycan ordusu, həmçinin sərhəd qoşunları tam döyüş hazırlığı vəziyyətinə gətirilmişdilər. Onlar əmr gözləyirdilər ki, qarşı tərəf hər hansı təxribat törədərsə ona tərəf dərhal ağır və layiqli cavab verilsin.



Daha bir məqam bu idi ki, rəsmi Tehran İran inqilabı keşikçiləri korpusunun "Azərbaycanın suveren ərazilərinə müdaxilə" xarakterli hərbi manevrlərin keçirilməsi iddialarını qəbul etməyərək bəyan edirdilər ki, onların məqsədləri "şimal-qərb sərhədlərinin təhlükəsizliyini təmin etmək" olub. Yəni İranın hərbi-siyasi dairələri məqsədli şəkildə özlərinin şimal qonşularını öz təbirlərincə "qorxutmaq" istəyiblərmiş...

### Bu addımlar Tehran üçün kifayət qədər fatal və dramatik, hətta ağlasığmaz dərəcədə ağır nəticələrə səbəb ola bilər

Və bütün bunlardan sonra Azərbaycan və Türkiyə ordularının hərbi təlimləri nəinki səbrin tükənməsi siqnalını verir, həm də ona işarə edir ki, İran bundan sonra hər hansı təhdid dili ilə danışmağa davam edərsə, yaxud İranın yuxarı eşalonlarında oturan bu və ya digər söz sahibləri Azərbaycana qarşı dil uzadarlarsa, təhlükə, hücum, aqressiya, təhqir və s. xarakterli ifadələrini davam etdirərlərsə həmin addımlar Tehran üçün kifayət qədər fatal və dramatik hətta ağlasığmaz dərəcədə ağır nəticələrə səbəb ola bilər.

Halbuki daha bir fakt budur ki, İran özünün digər təcavüzkar və işğalçı xislətli qonşusu, hətta bir az da irəliyə gedərək "qohum xalq" adlandırdığı Ermənistana açıq-aydın havadarlıq edir, üstəlik regionda dəyişmiş güc balansını qəbul etmir, həmçinin Zəngəzur dəhlizinin işə salınmasının qarşısının alınması istiqamətində əlində olan bütün imkanlarından maksimum istifadə etməyə çalışır.

Eləcə də müstəqil siyasət yürüdən Azərbaycanın hansı ölkələrlə necə münasibət qurmasına da sözün əsl mənasında burun dürtür. Misal üçün, Azərbaycana siyasi və mənəvi dəstəyini əirgəməyən İsraillə qurduğu münasibətlərinə görə dil uzadır, Bakını "sionist rejimlə" dostluq və strateji partnyorluq etməkdə ittiham edir. Bu kimi faktorları Bakıya qarşı istifadə edəcəyini özü üçün kifayət edən İran reallıqda kökündən yanılır və yaxşı bilir ki, onun həmin cəhdləri sadəcə boş-boş siyasi çərənləmələrdən başqa heç nə deyil. Yəni ayətullahlar rejiminə görə onlar ötən əsrin 70-80-ci illərinə aid köhnəlmiş və yararsız zirehli hərbi texnikaları, paslanmış helikopterləri və təyyarələri, hazırlıqsız canlı qüvvələri ilə Türkiyə və Azərbaycan kimi dövlətlərin ordularını "vahiməyə" salacaq və s. Amma nə baş verdi? Bu sualın cavabı da məhz hazırda sərhəd ərazilərində keçirilən yüksək səviyyəli birgə hərbi təlimlər vasitəsi ilə verilməkdədir.



Azərbaycandakı missiyasının rəhbəri, general Bahatiyar Ersay da MN rəhbərliyi ilə birgə izləyib. Mövcud irimiqyaslı hərbi təlimlərə gəlincə isə artıq onu Türkiyənin müdafiə naziri Hülusi Akar, həmçinin Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının rəisi Yaşar Güler də izləyirlər.

Belə bir məqamda isə daha bir xatırlatmanı etmək yerinə düşərdi. 2000-ci ilin əvvəllərində İran tərəfi Xəzərin o zamankı mübahisəli, bu gün isə Azərbaycana məxsus neft-qaz yataqlarını ələ keçirmək üçün dəfələrlə ölkəmizin hava sərhədlərini pozub, hətta hava məkanlarımızın ən dərinliklərinə qədər qırıcılarını göndərib. İran açıq şəkildə Azərbaycanı təhdid edir, aqressiya nümayiş etdirirdi. Məhz onda F-5 qırıcı təyyarələrinə məxsus "Türkiyə qartalları" eskadriliyası Bakı səmalarında göründü və nəticədə İran təhdid, hədə dilindən konstruktiv dialoqa getməyə məcbur oldu. Bu baxımdan, Tehrandakı başıəmmaməli başbilənlər hazırda sərhədləri yaxınlığında aparılan irimiqyaslı hərbi təlimlərdən nəticə çıxarsınlar, necə ki, 2000-ci ildə bənzər nəticələri çıxarmağa məcbur olmuşdular. Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin "Qardaşlıq yumruqları" isə havadadır və hər an bizi istəməyən istənilən qüvvələrin başlarını əzmək üçün zərblə endirilə bilər.





## Nə Bakı, nə də Ankara olanları, sadəcə, seyr etməklə kifayətlənməyəcəklər

Və bu gün sinələrinə döyən iranlı hərbi-siyasi dairələr uzaqgörmə cihazları ilə Arazın o tayında, yəni Azərbaycanın bu tərəfində həyata keçirilən hərbi təlimləri rahat şəkildə izləyə bilərlər və bir daha şahid olarlar ki, Azərbaycan və Türkiyə orduları nə qədər müasir, XXI əsrin tələblərinə cavab verən sonuncu nəsil müasir hərbi təchizatlara, texnikalara, silahlara - ən əsası isə ən yüksək döyüş ruhuna malik peşəkar hərbçilərə malikdirlər.

Əslində o da sirr deyil ki, artıq 3 aya yaxındır ki, İranın öz daxilində baş verən daxili qiyamlar, üsyanlar açıq-aşkar mövcud rejimi devirəcək qədər inqilab küləyini əsdirməyə başladıb. Bu gerçəklik isə mollakratiya rejimini həqiqətən də qorxutmağa başladıb.

Üstəlik, Bakı-Ankara tandeminin hərbi-siyasi reallığı da qarşı tərəfi təlaşlandırmaqdadır. İnanmaq istərdik ki, artıq Tehran özü-özünə hesabat verməyi də düşünür ki, Azərbaycanın ünvanına irəli sürülən təhdid dərhal Türkiyənin həmin məsələyə müdaxiləsi ilə nəticəsini tapacaq. Eləcə də Cənubi Azərbaycanda Milli Hökumət şüarları ilə küçələrə çıxan azərbaycanlı soydaşlarımıza, habelə türk azlıqlarına qarşı amansız repressiyalar davam edərsə nə Bakı, nə də Ankara olanları sadəcə seyr etməklə kifayətlənməyəcəklər.



## 2022-dən 2000-nə xatırlatma səyahəti

Yeri gəlmişkən, Tehran həm də onu da unutmamalıdır ki, sərhədlərdə keçirilən hərbi təlimlər ilk deyil. Buna qədər də İranla sərhəddə Azərbaycanın xüsusi təyinatlı qüvvələri, habelə diversiya-desant briqadaları İran İslam Respublikasının sərhədləri yaxınlığında hərbi təlimlər keçiriblər. Həmin təlimləri isə Türkiyə Silahlı Qüvvələrinin

***Rövşən RƏSULOV***

***P.S. Arazın o tayı da, bu tayı da onsuz da bizimdir və bu danılmaz həqiqətdən də kimsənin şübhəsi olmasın!***

# Avropa ilə ABŞ arasında "TİCARƏT MÜHARİBƏSİ"

**Rusiya-Ukrayna müharibəsi fonunda Qərb ölkələri özlərini göstərməkdə, kifayət qədər əzələ nümayiş etdirməkdədirlər. Bu proseslərin fonunda Avropa ilə ABŞ arasında "ticarət müharibəsi" də diqqətdən yayınmır. Dünya gücləri arasında baş verən "toqquşmalar" Azərbaycan üçün hansısa təsirlərə səbəb olub-olmayacağı çox maraqlıdır və bizi daha çox maraqlandıran öz qanuni tələblərimizi daha fəal müdafiə etmək imkanlarımızın olmasıdır.**



Fransa prezidenti Emmanuel Makronun ABŞ-a beş günlük səfəri hal-hazırda diqqət mərkəzindədir və geniş müzakirə mövzusuna çevrilib. Danışıqların əsas mövzusunun Ukrayna məsələsi olması görüntüsünü yaratmağa çalışan Ağ Ev iddia edir ki, Qərb düşərgəsində əməkdaşlıq ruhu hökm sürür və guya hamı Rusiya təcavüzünə qarşıdır, onu dəf etməklə məşğuldur. Ancaq məsələ bu qədər bəsit deyil və daha mürəkkəb görünür. Hətta dünyaca məşhur olan "The Wall Street Journal" nəşrində qeyd olunur ki, Rusiya-Ukrayna müharibəsi fonunda iqtisadi nəticələri, ələlxüsus enerji sektorunun nəticələrini ABŞ-ın ağırlaşdıran siyasətinə görə Makron və digər Avropa ölkələri liderləri qəzəbləniblər.

Avropa ölkələri liderlərinə daha çox təsir edən, onları qəzəbləndirən ötən ilin yayında ABŞ-da qəbul edilmiş iki yeni qanundur ki, onlar bu qanunlardan, yumşaq desək, narazıdırlar. Qanunlardan biri, hətta birincisi "İnflyasiyanın azaldılması qanunu"dur ki, məhz bu, Avropa sənayesini təhdid edən qanundur. Sözügedən qanuna əsasın ABŞ hökuməti Amerika şirkətlərinə və istehlakçılarına müəyyən ABŞ mallarının alınması ilə bağlı 400 milyard dollar subsidiya ayıracaq, həmçinin vergi güzəştləri edəcək. Bu üstünlüklər isə avropalı rəqiblərə sarsıdıcı zərbə deməkdir, çünki Avropa İttifaqı və ABŞ arasında qeyri-tarif maneələri aradan qaldırıldığından, Avropa biznesləri çətin seçim qarşısında qalırlar. Belə bir şəraitdə ya itkilərlə üzləşiləcəyi və ya çoxlarının ABŞ-a köçəcəyi gözlənilir ki, ümumilikdə Avropanı narahat edən də budur. Digər məsələ, yəni ikinci qanun, müasir texnoloji inkişafın əsas komponentlərindən biri olan qabaqcıl yarımkeçiricilərin istehsalının ABŞ-da genişlənməsini təşviq etmək üçün nəzərdə tutulmuş Çip Aktı hesab olunur. Müvafiq hüquqi və struktur tədbirlərinin görülməsinə, tədqiqatlara, eləcə də müvafiq istehsalın yaradılmasına 280 milyard ABŞ dolları ayırmaqla, Amerika hakimiyyət orqanları hökmranlığa nail olmaq niyyətindədirlər. Elə Avropanı da narahat edən budur, çünki gələcəkdə amerikalılara uduzacaqlarını dərk edirlər və buna görə də hərəkətə keçiblər.







Nəzərə almaq lazımdır ki, Avropada enerji daşıyıcılarının qiymətinin ABŞ ilə müqayisədə daha yüksək olması Avropa sənayesinin vəziyyətini daha da ağırlaşır. Amerika elə təsəvvür, elə görüntü yaratmaq istəyir ki, guya Avropa ölkələrinə qaz tədarükünü diversifikasiya etməklə "Avropanı Putindən xilas edib", lakin heç də belə görünmür. Bələki, 2021-ci ilə nisbətən bu il Avropa İttifaqına maye halında təbii qaz ixracını iki dəfə artırmaqla amerikalılar qiymətləri də yüksəltdilər. Təsadüfi deyil ki, Fransa prezidenti Makron özü bu barədə fikirlərini açıq şəkildə ifadə edib və bildirib ki, bu "dost" addımı kimi bir təəssürat bağışlamır.

Reallıq bundan ibarətdir ki, Avropada biznesin xaricə, enerjinin daha ucuz olduğu və subsidiyaların verildiyi yerə köçürülməsi barədə ciddi fikirlər var. Məsələn, ötən həftə Almaniyada aparılan sorğuların nəticələri təsdiq edir ki, Almaniyanın hər beş iri sahibkardan biri artıq "köçmək" planı üzərində düşünür. Fransa prezidenti Makronun keçən həftə Avropa dəyirmi masasında avtomobil nəhəngi BMW-dən tutmuş əczaçılıq konserninə, kimya şirkətlərinə qədər onlarla ən böyük firmanın rəhbərləri ilə görüşməsi təsadüfi deyildi. Bununla Makron hansısa çağırış etməyə çalışıb, amma istəyinə nə qədər nail olduğu bəlli deyil.

Makronun Amerikaya səfəri də təsadüfi sayılmır. Məsələ burasındadır ki, ABŞ-a beş günlük səfəri çərçivəsində Fransa prezidenti Emmanuel Makronun Aİ-nin nümayəndəsi kimi Vaşinqtonda çıxışı, transatlantik tərəfdaşları və Aİ ölkələrinin maraqları ilə yeni siyasətini əlaqələndirməyə, eləcə də Avropa sənayesinin möhkəm olmasına kimlərisə inandırmağa çalışması uğursuz hesab olunur. Görüşdən sonra qəbul edilən birgə kommünikedə Fransa və ABŞ arasında uğurlu əməkdaşlığın ondan çox sahəsi sadalanıb, amma Makron Vaşinqtonun Avropa sənayesinin maraqlarını pozan qanun layihələrinə düzəlişlər etmək tələbləri ilə çıxış edə bilməyib, baxmayaraq ki, problemləri həll edə bilməyən, buna görə də xaricə, məhz Amerikata uçmağa Fransa liderini məcbur edən bu idi. "Biz yenidən sinxronlaşmalıyıq və bu səhər müzakirə çox aydın oldu", deyən Fransa prezidentinin uduzduğu onun görüşdən sonrakı mətbuat konfransındakı barışdırıcı tonunda da aydın təzahür edirdi. "ABŞ üzr istəmir... Bizimlə işləyən insanları heç vaxt kənarlaşdırmaq niyyətimiz olmayıb", deyən Bayden isə nəyəsə görə üzr istəməkdən və ya nəyisə etiraf etməkdən qəti şəkildə imtina edib.

Diqqətə çatdıraq ki, dekabrın 5-də, bazar ertəsi günü, Avropa İttifaqının əlavə nümayəndə heyətinin Vaşinqtona səfər planlaması da əbəs yerə deyil. Səfər ABŞ hakimiyyəti ilə Avropa sənayesinin maraqlarının pozulması məsələlərini rəsmi müzakirə etmək məqsədi daşıyır. Məsələ burasındadır ki, səylər mənasız görünür. Görünən odur ki, Avropa İttifaqının hansısa müsbət nəticələr əldə etmək kimi bir şansı yoxdur. Reallıq bundan ibarətdir ki, ziddiyyətləri Avropa İttifaqının uduzması şərtləri daxilində həll etməkdən başqa nümayəndə heyəti başqa nəticələrə ümid edə bilməz. Çox güman ki, Avropa liderləri ABŞ prezidenti Baydendən qanunun icrasını, yaxud düzəlişlər edilməsini istəmək niyyətindədirlər, amma məsələ burasındadır ki, Bayden qanunları ləğv edə və ya düzəliş edə bilməz. Bu qanunlar Amerika prezidenti tərəfindən imzalansa da Konqres tərəfindən təsdiqlənir və indi milyardlarla dolları itirmək siyasi intihar sayılır.

Bütün bu sadalanan məqamlar təsdiq edir ki, Avropa ilə ABŞ arasında "ticarət müharibəsi" ərəfəsindəyik və bu müharibədə Avropa İttifaqının qalib gəlmək şansı sıfıra bərabərdir. Kompromis həll yolu belə üfüqdə görünmür. Hətta son vaxtlar Aİ-nin aparıcı ölkələri kimi, Paris və Berlin amerikalı tərəfdaşların gələcək çətinliyi halında Avropa şirkətlərinə vergi güzəştlərinin verilməsi yolu ilə Avropa İttifaqı sənayesini qorumaq üçün cavab tədbirləri görməyə razılaşmaq niyyətlərini də ortaya qoydular. Amma razılığın alınacağına özlərinin də ümidləri yox dərəcəsindədir. İndiki vəziyyətdə bunun əksini gözləmək daha inandırıcı görünür. Çünki qüvvələr bərabər deyil və Avropa Birliyinin xüsusi seçimi də yoxdur. Məsələ Avropa və Amerika arasındakı "proteksionizm yarışında kimin kimə qalib gələcəyi" deyil, Vaşinqtonun iqtisadi təzyiqi qarşısında Avropa İttifaqının qeyd-şərtsiz təslim olmaqdan daha faydalı bir şeyə nail olmayacağı məsələsidir ki, son zamanlar avropalılar buna bir növ, alışqandırlar. Parisin, tarixdə ilk dəfə, öz səfirini geri çağırması, ancaq heç əldə edə bilməyəcəyini, uduzduğunu başa düşməsi fonunda yenidən bir həftə sonra səfirinin Vaşinqtona qaytarılması bunun əyani sübutudur.

Bəzi Qərbi Avropa siyasətçiləri çoxdandır Avropa və Rusiyanın qarşılıqlı məhvinin planlaşdırıldığı barədə bar-bar bağırırlar. Rusiya-Ukrayna müharibəsinin lap əvvəlindən belə Kremllə dialoqun davam etdirilməsinin zəruriliyi barədə Makron təkid etməsi də təsadüfi sayılmır. Fransa prezidenti hətta "sülh prosesini təşviq etmək" üçün Bayden və Putinə lazımi təsir göstərmək üçün bu yaxınlarda Papadan səy göstərməsini də boş yerə xahiş etməmişdi. Məsələnin kökündə nəyin dayandığını bilənlər başa düşürlər ki, "milli təhlükəsizlik" bəhanəsi ilə rəqiblərin məhv edilməsi, ən azından zəiflədilməsi planın əsasını təşkil edir və bunun qarşısının alınmasına maraq da bu səbəbdəndir.

Əlbəttə ki, belə bir qarşılaşmanın ölkəmizə, Azərbaycana hansısa təsirlərinin olub-olmaması hər birimizi maraqlandırır. Bu səbəbdən diqqətə çatdırmaq yerinə düşərdi ki, əsas Qərb dövlətləri ilə barəsində qeyd olunan qarşıdurmada belə Azərbaycanın öz ədalətli tələblərini müdafiə etmək üçün daha geniş imkanları mövcuddur. Azərbaycan demokratik ölkə olaraq öz haqq və hüquqlarını müdafiə edir, suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qoruyur və istənilən demokratik ölkə ilə əməkdaşlığa hər zaman açıqdır. Bu əməkdaşlıq üçün isə Azərbaycanın resursları da kifayət qədərdir. Xüsusilə qeyd etmək lazımdır ki, dünyada mövcud enerji böhranı fonunda Azərbaycanın təbii ehtiyatları, enerji resursları indi hamıya lazımdır və bu baxımdan Avropa ilə ABŞ arasında "ticarət müharibəsi" ölkəmiz üçün heç bir arzuolunmaz nəticə vəd etmir.

***İnam Hacıyev***

ŞƏRH+AKTUAL

# Sülh razılaşması olmazsa...

*Politoloqdan maraqlı proqnozlar*

Nəyə görə Azərbaycana Ermənistanla sülh müqaviləsi lazımdır? Necə ola bilər ki, Azərbaycan qalib olduğu halda sülh təklif edir, məğlub olmuş Ermənistan isə sülh razılaşması prosesindən müxtəlif bəhanələrlə qaçır? SİA xəbər verir ki, bu kimi suallara politoloq Fərhad Məmmədov özünün ”Mneniyefm” teleqram səhifəsində cavab axtarıb və maraq doğuran nəticələrə varıb. Belə ki, bu kimi suallar sosial şəbəkələrdə fəal olan Azərbaycan seqmentinin şərh və rəylərində daha çox verilməkdədir. Eyni zamanda, erməni seqmenti də əks mövqeli suallar səsləndirirlər. ”Əgər Azərbaycan qalib gəlibsə onda nəyə görə sülh razılaşmasının qısa müddətdə imzalanmasına səy göstərir?... Qorxur ki, beş-on ildən sonra Ermənistan güclənəcək və revanşdan yayınmaq olmayacaq?” tipli məntiqsiz suallar verirlər.





### Ermənistan Azərbaycana təsir mexanizmi alətidirmi?

Politoloq qeyd edib ki, birincisi Azərbaycan sülh razılaşması üçün beş prinsip irəli sürüb və həmin mövzunu daim gündəmdə saxlayır. ”Bu, uzunmüddətli sülhün əldə olunması, qarşılıqlı öhdəliklərin yerinə yetirilməsi, ən əsası isə Azərbaycan üçün maksimum proqnozlaşdırıla bilən mühitin yaradılması üçün lazımdır”, deyə Fərhad Məmmədov yazıb. O, ikincisi olaraq hesab edir ki, Ermənistan Azərbaycana təsir mexanizmi alətidir və Ermənistanla münasibətlərin normallaşdırılması mövcud postulatdan irəli gələn təhlükələri neytrallaşdırmağa hesablanıb.

Üçüncüsü isə məsələnin hüquqi tərəfidir. Azərbaycanın 90-cı illərin əvvəllərində müharibədə məğlubiyyətə (digər dövlətlərin Ermənistana dəstəyi nəticəsində) uğramasına, 20-ci əsrdə əraziləri işğal altında qalmasına baxmayaraq, Azərbaycan həmin əraziləri azad etmək hüququnu özündə saxladı və 25 ildən artıq ardıcıl fəaliyyəti ilə - 2020-ci ildə başlatdığı əks-hücum əməliyyatına hüquqi və diplomatik əsaslar verməyi bacardı.

### Ermənistan bu ölkədə kimlərin rəhbər olmasına baxmayaraq özünü çətin və çıxılmaz vəziyyətə sürükləyir

Azərbaycan ərazilərinin 25 illik işğalı ərzində Ermənistan bu işğalı qanuniləşdirməyə çalışıb və işğal etdiyi ərazilərin ilhaqını nəzərdə tutan hüquqi sənədlər qəbul edib: ”Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh razılaşması Ermənistan tərəfindən qəbul edilmiş sənədlərin qüvvədən düşməsinə səbəb olacaq və Azərbaycana qarşı ərazi iddialarını aradan qaldıracaq. Qısa desək, ərazilərini hərbi yolla azad edən Azərbaycan sülh razılaşması sayəsində Ermənistanın Qarabağa olan iddialarını aradan qaldırır”, deyə politoloq bildirib.

Fərhad Məmmədov sülh razılaşmasının əldə edilməyəcəyi halda hansı olayların cərəyan edəcəyinə də proqnozlarını verib. Onun fikrincə, sülh razılaşması olmadan Ermənistan bu ölkədə kimlərin rəhbər olmasına baxmayaraq özünü çətin və çıxılmaz vəziyyətə sürükləyir. Belə ki, Ermənistan Qarabağ ərazilərinə iddialarını davam etdirərsə bununla revanş, yaxud növbəti müharibə istədiyini göstərəcək. Məhz bu mənada Ermənistanla Azərbaycan arasındakı hərbi disbalansa diqqət yetirmək kifayət edir: ”Ermənistan hətta hazırkı vəziyyətində beynəlxalq hüququ rədd etməsi, erməni silahlılarını Qarabağda saxlaması, hərbi cinayətkarları maliyyələşdirməsi, hökumətin saxladığı və Qarabağ ermənilərinə aid etdiyi ”xilas üçün ayrılmaq” proqramı ilə aqressiv dövlət kimi tanınır. Yəni Azərbaycanın hərəkət məntiqi ondan ibarətdir ki, sülh razılaşması normallaşma prosesinin başlanğıcı, Ermənistanın qanunvericilik sahəsində köklü dəyişikliklərə səbəb olmalıdır. Ancaq sülh razılaşmasının olmaması artıq indidən Azərbaycanın yarana biləcək təhlükələri aradan qaldırmasına zəmin yaradır”.

### Ermənistanın müharibəyə meyilliyi, sülh müqaviləsinin olmaması Azərbaycanı Ermənistanı sülhə məcbur etməyə vadar edir

Fərhad Məmmədova görə, beləliklə, əsas vasitəçilərin (Rusiya, Aİ, ABŞ) təmsil olunduğu beynəlxalq ictimaiyyət başa düşməlidir ki, Azərbaycan çox gözləmək fikrində deyil və gələcəyin qarşısını almaq üçün bütün mövcud resurslardan, o cümlədən ordudan istifadə edərək öz məqsədlərinə nail olacaq: ”Ermənistanın müharibəyə meylliyi, sülh müqaviləsinin olmaması Azərbaycanı Ermənistanı sülhə məcbur etməyə vadar edir. Çünki biz bu cəhdləri vasitəçilərdən tərəfindən görmürük. Onların bəziləri - məsələn, Ermənistanın arxalandığı Fransa Ermənistanın işğalçı siyasətini açıq şəkildə dəstəkləyir. Amma birtərəfli tədbirlər həyata keçirilsə belə, Azərbaycan sülhü və sülh müqaviləsini gündəmində saxlayacaq. Çünki bu, fundamental əhəmiyyət kəsb edir. Kimlərsə şərtləri də dəyişə bilər, ancaq prosesdə qalmaq lazımdır...”, deyə politoloq fikirlərində qeyd edib.

**Rövşən RƏSULOV**

# “Narkomaniyaya yox deyək!” mövzusunda sərgi keçirilib



Dekabrın 6-da Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun və ”Azərbaycan Televiziyası və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci ilə dair imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq YAP Mərkəzi Aparatının, partiyanın Xətai rayon təşkilatının və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə ”Narkomaniyaya yox deyək!” mövzusunda sərgi keçirilib. SİA xəbər verir ki, Xətai Sənət Mərkəzində keçirilən tədbirdə çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə narkomaniyanın bəşəriyyət üçün böyük bəla olduğunu bildirib. Ölkəmizdə narkomaniyaya qarşı sistemli mübarizə aparıldığını deyən V.Rəhimzadənin fikrincə, bütövlükdə cəmiyyətimiz bu mübarizədə fəal iştirak etməlidir. Onun sözlərinə görə, bu sərginin təşkil olunması narkomaniyanın fəsadlarını xüsusilə gənclərə çatdırmaqdan ibarətdir. Diqqətə çatdırılıb ki, Xətai rayonu ərazisində fəaliyyət göstərən məktəblərin şagirdləri tərəfindən bu mövzuda 100-ə yaxın rəsm əsəri YAP Xətai rayon təşkilatına təqdim olunub. Onlardan 40 rəsm əsəri seçilərək sərgiyə çıxarılıb. V.Rəhimzadə bu tipli tədbirlərin davamlı olaraq keçirilməsinin zəruriliyini vurğulayıb.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva bildirib ki, narkomaniya ilə mübarizə və onun profilaktikası mühüm məsələ olmaqla yanaşı, sağlam gəncliyin yetişməsində ən vacib amillərdən biridir. Onun sözlərinə görə, gənclərin bu kimi vərdişlərdən uzaq olması üçün maarifləndirmə tədbirləri daha da gücləndirilməlidir. Elmli, bilikli gənclərin digər həmyaşıdlarının zərərli vərdişlərdən uzaqlaşmasında oynaya biləcəyi rol danılmazdır. Bu baxımdan, məktəblilərin bu sərgiyə təqdim etdiyi rəsm əsərləri maarifləndirici xarakter daşıyır.



Daha sonra tədbirdə Xətai rayon İcra Hakimiyyəti başçısının müavini Etibar Əhmədov, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun rəhbərinin müavini Tanrıverdi Aydınov və Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov çıxış ediblər. Bildirilib ki, narkomaniya insan həyatı, eləcə də bəşəriyyət üçün böyük fəsadlar yaradan ən ağrılı problemlərdən biridir. Qorxunc təhlükə olan narkomaniya heç bir sərhəd tanımır, qlobal xarakter daşıyır. Buna görə də bu bəlaya qarşı mübarizədə yeniyetmə və gənclər arasında maarifləndirmə işlərinin genişləndirilməsi prioritet məsələdir. Ölkəmizdə bu istiqamətdə atılan qətiyyətli addımlar nəticəsində narkomaniya ilə mübarizədə ciddi uğurlar əldə olunub. Hazırda Azərbaycan Prezidenti tərəfindən təsdiq olunmuş ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” yüksək səviyyədə icra edilir.

Dövlət Proqramının icrası ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, ”Azərbaycan Televiziyası və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu arasında 2022-ci ilə dair birgə Tədbirlər Planı imzalanıb.

Tədbirlər Planı çərçivəsində narkomaniyaya qarşı mübarizə sahəsində maarifləndirmə işinin aparılması məqsədilə bu istiqamətdə dəyirmi masaların, idman yarışlarının, mədəni-kütləvi tədbirlərin keçirilməsi davam edir. Rəsm sərginin keçirilməsi də bu səpkidə olan tədbirlər silsiləsindəndir. Tədbirin əsas məqsədi bəşəriyyət üçün böyük bəla olan narkomaniyaya qarşı mübarizə ilə bağlı təbliğat işinin daha da gücləndirilməsi, sağlam gələcəyimiz naminə yeniyetmə və gənclər arasında aparılan maarifləndirmə işlərinin davamlılığını təmin etməkdən ibarətdir.

Qeyd edək ki, tədbirin sonunda rəsm əsərlərinin müəllifi olan məktəblilərə sertifikatlar təqdim edilib.



# Ümummilli hərəkata çevrilən KÖNÜLLÜLÜK

Vətənpərvər Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə töhfəsini verir. Bu gün Azərbaycan gəncliyi ona göstərilən diqqətin fərqindədir və gənclik ona olan etimadı hər zaman doğrultmaq üçün bütün potensalından maksimum dərəcədə istifadə edir. Millətin mövcudluğunda, dövlətin tərəqqisində, dünyada nüfuz qazanmasında əlbəttə ki, vətənpərvər gəncliyin rolunu xüsusi olaraq qeyd etməliyik. Bu, gənclik üzərinə böyük məsuliyyət qoyur. Bu məsuliyyət sırasında olanlardan biri və ən ümdəsi isə Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısındakı müqəddəs borcların verilməsidir. Ulu Öndər Heydər Əliyevin müdrik kəlamını xatırlatmaq yerinə düşər. Ulu Öndər deyirdi ki, gənclərimizin ən mühüm vəzifələrindən biri də ordu sıralarında xidmət etməkdir. Bəli, vətəni qorumaq, onun müdafiəsində durmaqdan şərəfli bir iş yoxdur. Bizi bir millət olaraq yaşadan Vətənimizdir, Vətən torpağıdır. Onun üzərinə axıdılan igid vətən oğullarının qanıdır. Hər bir vətən oğlunun yolu Azərbaycan Silahlı Qüvvələrindən - vətənə xidmətdən keçir, ərənlik və kişilik məktəbindən. Bu gün Azərbaycan Ordusunun hərbi hissələrində vətənpərvərlik, yüksək ruh hakimdir.

## CƏMİYYƏT, VƏTƏN NAMİNƏ ƏVƏZİ ÖDƏNİLMƏYƏN İCTİMAİ FƏALİYYƏT




2020-ci il Vətən müharibəsində Azərbaycanın vətənpərvər oğulları könüllülüyün daha bir bariz nümunəsini əməldə ifadə etdilər. Ali Baş Komandanın ətrafında sıx birləşərək, Vətən müharibəsində iştirak etməyə qərər verdilər. İsrarlı olaraq, torpaqlarımızı müdafiə etməyə qalxdılar. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Vətənin müdafiəsinə qalxan oğullar erməniyə dərs vermək, işğal altında olan torpaqlarımızı azad etmək uğrunda könüllü olaraq orduda xidmət etmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına səs verdilər. Yaşından asılı olmayaraq, hər kəs müsəlləh əsgərə çevrildi. Sağlam düşüncəli gənclərimiz könüllü olaraq ön cəbhəyə yola düşdülər. Vətənin müdafiəsində dayandılar. Heç şübhəsiz ki, öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən könüllülük əsasında cəmiyyət, vətən naminə təmənnasız işlərin görülməsi dayanır.

Prezidenti İlham Əliyevin reallaşdırdığı siyasətin əsas məqsədlərindən biri neft kapitalının insan kapitalına çevrilməsi idi. Bu zaman qarşıya qoyulan məqsədləri gerçəkləşdirmək üçün innovativ və geniş kütlənin maraqlarına cavab verən yeni addımlara ehtiyac vardı və əlbəttə, bu sahədə könüllülüyün mühüm önəm daşıması danılmaz idi. Əlbəttə ki, müasir dövrümüzdə ölkəmizin demək olar ki, hər bir yerində könüllü gənclərin də payı var. Azərbaycanda həyata keçirilən beynəlxalq və qitə miqyaslı tədbirlərdə, o cümlədən idman yarışlarında gənclərin könüllülər qrupunda təmsil olunması vətənpərvər, milli köklərə bağlı, müasir dünyagörüşlü, şəxsi keyfiyyətləri yüksək olan vətəndaş kimi formalaşmasını özündə təcəssüm etdirir. Könüllülük fəaliyyəti gənclərdə faydalı əmək, həmrəylik kimi dəyərlər aşılamış olur. Qeyd edək ki, 2020-ci il Azərbaycan Respublikasında dövlət başçısının Sərəncamı ilə "Könüllülər ili" elan edilmişdir. Bu Sərəncam gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyır. Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

## HƏRBİ XİDMƏT ÜÇÜN ÖZÜNÜ TƏQDİM EDƏN

Bildiyimiz kimi, hər il BMT Baş Assambleyasının 1985-ci il 17 dekabr tarixində qəbul olunan qətnaməsi əsasında hər il 5 dekabr dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. Bu gün ölkəmizdə də qeyd olunur. Qeyd olunan günün böyük anlamı var. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. "Könüllü" termininin etimologiyasına nəzər salsaq görərik ki, bu söz öz ilk dəfə 1600-cı illərdə istifadə olunub. "Hərbi xidmət üçün özünü təqdim edən" mənasını daşıyır.

Ölkəmizdə könüllülük fəaliyyəti üçün hər cür şərait yaradılıb, bu istiqamətdə zəruri hüquqi baza mövcuddur. Eyni zamanda, bütün dövlət qurumları tərəfindən bu fəaliyyətə cəlb olunmuş təşkilat və şəxslərə lazımi dəstək göstərilir. Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Bu fəaliyyətlə məşğul olanlar digər şəxslərə kömək etməklə yanaşı, öz bilik və bacarıqlarını təkmilləşdirmək imkanı qazanırlar. Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 9 iyun 2009-cu ildə "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Bu Qanunun məqsədi hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyir. Qanunun qəbul edilməsi Azərbaycan könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynadı. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu.

## GƏNCLƏR SİYASƏTİNİN MƏRKƏZİNDƏ GƏNCLİYİN CƏMİYYƏTƏ YARARLI VƏTƏNDAŞ KİMİ YETİŞMƏSİ DAYANIR

Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilib, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərin həyat tərzinə çevrilib. "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranıb, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb. Ölkəmizdə mərkəzi icra hakimiyyəti orqanı və bütün yerli icra hakimiyyəti orqanları yanında könüllü qrupları yaradılıb. Belə ki, bu gün ölkəmizdə "Gənc Könüllülər", "RİİB Könüllüləri", "BİR Tələbə-Könüllülər", "Aqrar İnkişaf Könüllüləri", "KOB Könüllüləri", "Miqrasiya Könüllüləri", "Ədliyyə könüllüləri" və s. qurumlarda müxtəlif könüllülər təşkilatları uğurla fəaliyyət göstərirlər. Eyni zamanda, 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) yanında könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı yaradıldı. "ASAN xidmət" mərkəzləri yarandığı gündən könüllülərin fəaliyyətindən geniş istifadə olunur. Könüllülər "ASAN xidmət"in ayrılmaz tərkib hissəsinə çevrilib.

1 saylı "ASAN kommunal" mərkəzinin açılışında Prezident İlham Əliyev könüllülərin "ASAN xidmət"dəki rolunu yüksək qiymətləndirirdi: "Əlbəttə ki, biz "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. "ASAN" yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik. Ancaq: "könüllülər hərəkatı nədir?"- onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır. Mənə verilən məlumata görə, 10 min gənc artıq könüllü kimi "ASAN xidmət" mərkəzlərində işləyib və bu insanların bir çoxu bu gün müxtəlif vəzifələrdə, müxtəlif işlərdə ölkəmizin gələcək inkişafı üçün çalışırlar".Onlar yüzlərlə fərqli layihələr həyata keçiriblər, müxtəlif təlim və treninqlərə cəlb ediliblər. 2013-cü il dekabrın 19-da "ASAN Könüllülərinin I Qurultayı" keçirilib. Əlbəttə ki, keçirilən tədbirlər ölkəmizdə vüsət almış gənclər siyasətinin tərkib hissəsidir. Ölkəmizdə keçirilən Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynayıblar. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva könüllülərə, onların fəaliyyətinə yüksək dəyər verirlər. Hazırda ölkəmizdə yürüdülən gənclər siyasətinin mərkəzində gənclərin maraqları, onların potensiallarının artırılması, cəmiyyətə yararlı vətəndaş kimi yetişmələri dayanır.

**Nəzakət ƏLƏDDİNQIZI**

# “Laçın yolunda Azərbaycan gömrükçüləri yerləşdirilməlidir”

**“Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və ”AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşlarının bölgədəki vəziyyəti monitorinq etmək məqsədi ilə Xankəndinə səfər etməsi və sülhməramlılarla görüşü öz nəticəsini verdi”. Bunu ”Səs” qəzetinə açıqlamasında politoloq İlyas Hüseynov deyib.**







Onun sözlərinə görə, Rusiya sülhməramlı qüvvələrinin komandanı, general-mayor Andrey Volkov bildirdi ki, Azərbaycanla keçirilən danışıqların nəticəsi olaraq, minigömrük postu qurulacaq və bu ərazidə gömrükçülər fəaliyyət göstərməlidi: ”Lakin dərhal bundan sonra Ermənistan tərəfi bildirdi ki, həmin ərazidə də sülhməramlılar fəaliyyət göstərməlidirlər. Lakin bu, çox qərəzli bir yanaşmadır. Düşünürəm ki, həmin ərazidə Azərbaycan gömrükçüləri və sərhədçiləri olmalıdırlar. Çünki burada söhbət Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən gedir. Rus sülhməramlıları həmin əraziyə üçtərəfli birgə bəyanatın 4-cü maddəsinə uyğun olaraq yerləşdiriliblər. Əfsuslar olsun ki, hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları regionda mövcuddur və onlar bölgəni tərk etməyiblər. Hətta Azərbaycanın kütləvi informasiya vasitələrinin həmin ərazidə çəkiliş apararkən video görüntülərinə separatçıların nümayəndələri də düşdülər. Bu da qəbul olunmaz bir faktdır və heç bir məntiqə sığmır, lakin sülhməramlıların arxasında gizlənərək hələ də orada qalmağa davam edirlər. Ona görə də, üçtərəfli birgə bəyanatın bütün maddələrinin himplimintasiyası hazırda mühüm xarakter daşıyır. Laçın yolunda Azərbaycan gömrükçüləri mütləq şəkildə yerləşdirilməlidir. Onlar öz fəaliyyətlərini qurmalıdır və bölgəyə qeyri-qanuni məqsədlərlə gələn bütün yüklər müsadirə olunmalıdır”.

***Gülyana***

# “Müxalifət demişdi ki...”

*Hüquq müdafiəçisindən maraqlı açıqlama*

**“İlham Əliyevi ömürlük Prezident seçmək lazım deyil. Onsuz da onu seçəcəklər. İllərdir, Azərbaycan bir qarış torpaq qaytarmamışdı. Ali Baş Komandanın başçılığı ilə Ordumuz Qarabağı bizə qaytardı. Bu, Azərbaycan üçün, dövlət üçün çox böyük qələbədir. Ona görə də, hesab edirəm, demokratik seçkilərlə İlham Əliyev seçiləcək”. SİA xəbər verir ki, bu sözləri mətbuata açıqlamasında tanınmış hüquq müdafiəçisi Novella Cəfəroğlu deyib. Hüquq müdafiəçisi vaxtilə müxalifətin səsləndirdiyi fikirləri də xatırladıb. SİTAT: ”Müxalifət demişdi ki, İlham Əliyev Qarabağı alsın, ömürlük Prezident qalsın. Axı bu da var idi”.**

N.Cəfəroğluya görə, demokratik seçkilərdə İlham Əliyev birinci olacaq. Bu baxımdan da, ”ömürlük Prezident seçilsin” deməyin faydası yoxdur. O, əminliklə bildirib ki, İlham Əliyev Azərbaycan xalqının lideri olaraq seçiləcək. SİTAT: ”Əminəm ki, hər dəfə İlham Əliyevi seçəcəklər. Görün, bu gün, sabah nə qədər dəyişikliklər olacaq”.

Hüquq müdafiəçisi hazırda işğaldan azad edilmiş torpaqlarımızda aparılan bərpa, tikinti-inşaat və infrastruk-



turlar barədə də münasibətini açıqlayıb. Onun sözlərinə görə, Qarabağın bərpası üçün nəhəng işlər görülür, investisiya gətirilir və bütün bunlarla paralel olaraq rüşvətxorluğa, korrupsiyaya, eləcə də narkotiklərin yayılmasına qarşı güc strukturları mübarizə aparırlar və bütün bunların hamısı xalqın gözü qarşısında reallaşdırılır. O, qeyd edib ki, qarşıdakı zamanlarda daha böyük islahatlar realizə olunacaq və buna da səbr etmək lazımdır. Novella Cəfəroğlu bəzi problemlərin yaranmasında pandemiyanın da kifayət qədər təsirlər göstərdiyini qeyd edib. SİTAT: ”İslahatlar olacaq, sadəcə, bunun üçün bir az dözüm lazımdır. Müharibədən çıxmış dövlətik. Doğrudan da, çətinliklərimiz mövcuddur, qazilərimiz, şəhid ailələrimiz, pensiya məsələləri, sosial problemlər var. Pandemiya tək bizi yox, bütün dünyanı nə qədər geri atdı. Buna görə də bir az dözümümüz olsun”.

Novella Cəfəroğlu əmin olduğunu bildirib ki, Azərbaycan daha da güclənəcək və gözəl bir dövlət olaraq öz uğur sözünü deməyə davam edəcək.

***Rövşən RƏSULOV***



Elçin Bayramlı

# Qış gəldi, dəm qazı faciələri artdı - Nə etməli?

**Yenə qış gəldi və dəm qazından zəhərlənmə halları artır. Son bir gündə İsmayıllıda 1, Sumqayıtda 2 nəfər dəm qazından boğularaq ölüb. Bərdədə 4 nəfər zəhərlənməyə məruz qalıb. Son illərdə aparılan maarifləndirmə və təhlükəsizlik qaydalarına riayət edilməsi nəticəsində illik statistikada azalma olsa da, belə hallar aradan qalxmır. Ona görə də, insanlar diqqətli olmalı, evdə qaz cihazları və borularının normal vəziyyətdə olmasına və hava çıxışlarının təmiz olmasına fikir verməlidirlər.**

Bəzi hallarda suqızdırıcı qaz cihazlarının qapalı hamamda qoyulması və hamam otağının hava çıxışları olmadığından karbon-monoksiddən boğulma baş verir. Bu qazın iy-qoxusu olmadığından hiss etmək mümkün olmur. Evlərdə quraşdırılmış qaz avadanlıqlarından düzgün istifadə olunmadığı müddətcə bu vəziyyət davam edəcək. Üstəlik, bu avadanlıqların quraşdırılması mütəxəssislər tərəfindən deyil, həvəskar ustalar və ya ev sahibi tərəfindən həyata keçirilirsə, təhlükə ikiqat artır.

Qazsızmalar da böyük faciələrə yol aça bilir. Mütləq şəkildə mənzillərdə və obyektlərdə qaz detektoru olmalıdır. Hazırda bu cihazlar ucuz qiymətə hər yerdə satılır.

Qaz təchizatçısının üzərinə düşən öhdəlikləri də qeyd etməliyik. İndiyədək qaz işçilərinin mənzilə daxil olması qadağan idi, onlar yalnız sayğaca qədər baxa bilərdilər. Bu ildən etibarən qaz istismar idarələri əməkdaşlarına mənzillərdə qaz təhlükəsizliyini yoxlamaq səlahiyyəti verilib.

Azəriqaz-ın yerli idarələri öz ərazilərindəki bütün evlərdə, obyektlərdə mütəmadi baxış keçirməli, abonentlərin qaz təhlükəsizliyinə necə riayət etdiklərini yoxlamalıdırlar. Əlbəttə, bunu tez-tez etmək texniki cəhətdən və vaxt baxımından mümkün olmaz, amma uyğun bir müddət müəyyənləşdirilib ardıcıl olaraq həmin müddətdən bir bu yoxlamalar aparılmalıdır. Qaz təhlükəsizliyini kobud pozan, qaz sistemində özbaşına yolverilməz dəyişikliklər edənlər müvafiq qaydada cəzalandırılmalıdır. Bundan başqa maarifləndirmə tədbirləri artırılmalıdır.

Normal işləməyən, standartlara cavab verməyən qaz cihazları təhlükə mənbəyidir. Karbon-monoksid qazın natamam yanması nəticəsində əmələ gəlir. Çünki yanma tam getməyəndə dəm qazı karbon qazına çevrilə bilmir. Normal yanma zamanı isə dəm qazı tam yanaraq karbon 4-oksidə çevrilərək tüstü boruları vasitəsi ilə xaric olunur.

Qarşıdan qış gəlir və qaz cihazlarına düşən yük artacaq və təbii olaraq təhlükə də artacaq. Ona görə də, abonentlər qaz sisteminin yoxlanmasını təmin etməli, qazdan istifadə zamanı müvafiq təhlükəsizlik qaydalarına riayət etməlidirlər ki, faciə baş verməsin. Qazla bağlı təhlükəsizliyinin təmin olunması, qəza və ölüm hallarının baş verməməsi üçün hər şey başdan düzgün edilməlidir.

Əvvəla, evə, mənzilə, obyektə qazın çəkilişi ixtisaslaşmış lisenziyalı şirkətlər tərəfindən aparılmalıdır və Azəriqaz tərəfindən yoxlanılıb rəy verildikdən sonra qaz sistemində özbaşına heç bir dəyişiklik edilməməlidir.

İkincisi, qaz cihazları və avadanlıqlarından istifadə edərkən mütləq standartlara cavab verən, müvafiq seritifikatı olan avadanlıqlar seçilməlidir.

Üçüncüsü, qazla davranış haqda təlimatlara riayət edilməlidir. Mənzilin hava çıxış bacaları təmizlənməlidir. Dördüncüsü, mənzildə qaz detektoru olmalıdır. Hazırda bu cihazlar ucuz qiymətə hər yerdə satılır.

Beşincisi, suqızdırıcı qaz cihazları qapalı hamamda quraşdırılmamalıdır. Əgər başqa imkan yoxdursa, bu halda hamamın hava çıxışı təmiz olmalıdır, üstəlik qapıların aşağı hissəsində bir neçə yarıq qoyulmalıdır. Bu şərtlərə riayət edilsə, heç vaxt hər hansı bir qəza, o cümlədən dəm qazından zəhərlənmə olmaz.

# Ölkəmizdə içməli su problemi yaşanırmı?







**İqlim dəyişikliyi ilə bağlı son proqnozlara görə, 2050-ci ilə qədər dünya əhalisinin demək olar ki, yarısı təmiz şirin suya çıxışı məhdud olan su çatışmazlığı olan ərazilərdə yaşayacaq. Dövlət orqanları, milli və beynəlxalq təşkilatlar və su ehtiyatlarının istismarı ilə məşğul olan şirkətlər bütün dünyada suya artan tələbatı ödəmək üçün həll yolları axtarırlar.**

Dünyanın bir çox regionlarında şirin su ehtiyatlarının çatışmazlığı ciddi problemə çevrilib. Vəziyyət şəhər əhalisinin artması ilə daha da ağırlaşır. Təmiz şirin suya çıxış şəhərin davamlı həyatı üçün vacibdir. Təmiz şirin sudan sənaye və kənd təsərrüfatı kimi müxtəlif məqsədlər üçün istifadə olunsa da, onun 60%-i məişət ehtiyaclarına gedir. Pulun böyük hissəsi elektrik enerjisinə xərcləndiyi üçün şirkətlər enerjiyə qənaət edən yolları axtarırlar.

Dəniz suyunun duzsuzlaşdırılması su qıtlığının aradan qaldırılmasına və dünyanın suya artan tələbatının ödənilməsinə kömək etmək üçün perspektivli və sürətlə inkişaf edən texnologiyadır .Dəniz suyunu şirin suya çevirməyin iki yolu var:

Termal proseslərə əsaslanan duzsuzlaşdırma texnologiyaları (məsələn, buxarlanma , mərhələli distillə) və ya membran.

Keçmişdə Yaxın Şərqdə əsasən termal duzsuzlaşdırma texnologiyalarından istifadə olunurdu, çünki onların istifadə etdiyi zavodlar asan işləyir və enerji xərcləri azdır. Hazırda bazar tendensiyaları tərs osmos texnologiyasına çevrilir. Bu gün, misilsiz ekosəmərəliliyi sayəsində dünyada yeni duzsuzlaşdırma qurğularının üçdə ikisindən çoxu bu texnologiyadan istifadə edir.

## Bəs ölkəmizdə vəziyyət nə yerdədir?

SİA mövzu ilə bağlı araşdırma edib.

Əhalinin içməli su təminatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə ölkəmizdə struktur islahatlar aparılmışdır. Dövlət başçısının "Su təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 11 iyun 2004-cü il tarixli sərəncamına əsasən, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti yaradıldı.

Bu kompleksdə ən müasir texnologiyalar tətbiq edilir, dünyanın ən böyük sutəmizləyici kompleksidir. Cəmiyyət göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, yaranan problemlərin operativ həlli üçün bütün imkanlardan istifadə edir və bu məqsədlə 955 Zəng Mərkəzi 24 saat fasiləsiz fəaliyyət göstərir.

Bölgələrdə yaşayan əhalini keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək məqsədilə Mingəçevir, Quba, Qobustan və Ağstafa sutəmizləyici qurğuları da istismara verilib. Son illər şəhər və rayon mərkəzləri, həmçinin içməli sudan əziyyət çəkən kənd və qəsəbələrdə həyata keçirilən su-kanalizasiya layihələri müstəqil Azərbaycan dövlətinin öz vətəndaşlarının sağlamlığı və sosial rifahının yüksəldilməsinə hesablanmış məqsədyönlü siyasətinin əsas istiqamətini təşkil edir.

Azərsu" ASC-də ictimaiyyətlə əlaqələr departamentin rəhbəri Anar Cəbrayıllı:" Azərbaycanın şirin su ehtiyatlarının cəmi 2 faizini içməli su məqsədilə istifadə olunur.Və bu günləri deyərdim ki, mərkəzləşmiş artizan sistemlərimizdə su qıtlığı ilə bağlı problem yoxdur . Amma quraqlıq su mənbələrin məhsuldarlığına təsir göstərir. Bəzi mənbələr var ki, məhsuldarlığı azalıbdır . Tovuz, Ağsu, Şamaxının, Lerinin mənbələri ilə bağlı global iqlim dəyişikləri , quraqlıq ərazilərin artmasına səbəb olmuşdur, buna görə də biz bəzi yerlərdə alternativ mənbələr yaratdıq ki, həmin şəhərlərin təminatı həyata keçirtsin. Vətəndaşlardan gələn müraciətlərdə vaxtilə su mənbələri kimi istifadə etdikləri və indi qurulduğunu, bu halların daha çox yay aylarında baş verdiyini qeyd olunur. Biz onu görürüki ki, rayon ərazilərdə bəzi artizanlarımız quruyur . Su səviyyəsinin azalması kimi hallara rast gəlinir. Amma bir neçə şəhərdə alternativ mənbələr yaratmışıq və gələcək layihələrdə də bu kimi məsələləri nəzərə alacağıq. Şuşa şəhərində mütəxəssislər araşdırma aparanda məlum oldu ki, orada iyul -avqust aylarında mənbə suları azalıb və biz ora üçün alternativ bəndlər çəkməli olduq. Yay aylarında həmin bındlərdən istifadə edərək su ilə təmin olunmasını həyata keçriləcəkdir".

***Havar Şəfiyeva***



İLHAM

# Mərakeş futbola yenilik gətirir

**Dünyamızda müxtəlif səpkili və rəngdə idman oyunları var. Bu çoxsaylı oyunlar arasında ən populyar idman növü isə futbol hesab olunur. Dünyanın elə bir kəndi, qəsəbəsi, şəhəri yoxdur ki, orada futbol oynanılmasın və ya o mahalda futbol sevilməsin. Xüsusi maraq kəsb edən futbol 1825-ci ildə İngiltərədə yaradılsa da, regional turnirlərin və beynəlxalq miqyaslı oyunların təşkil olunması 8 dekabr 1863-cü ildən keçirilir.**

Futbolun ilkin yaranışında meydanda 5 oyunçu 1 qapıçı olub. Qapının ölçüləri də fərqli olub. Oyunları idarə edən hakimlərin geyimləri və idarəetmə üsulları, eləcə də meydançanın uzunluğu və eni təşkilatçıların ümumi istəyi və rəyi əsasında müəyyənləşib. Penaltinin təyin edilməsi də təsadüfi olmadığı bildirilir. Belə ki, 1891-ci ildə oyunlarda rəqibin çoxsaylı kobudluqlara yol verdiyini əsas gətirən irlandiyalı futbol mütəxəssisi Con Penalti 11 metrlik cərimə zərbəsinin təyin edilməsini təklif etmiş və onun bu təklifi 1893-cü ildə futbol qurumu tərəfində bəyənilərək rəsmiləşmişdir. Oyunlarda qapıçılar müstəsna hüquqlara və vəzifələrə malik olmuşlar. Hətta 1922-ci ilə qədər qapıçılar meydanın mərkəz xəttinə qədər əlləri ilə topu tutmaq hüququna malik idilər. Ancaq bu oyuna həvəs artdıqca, futbolun təşkili və keçirilməsi də təkmilləşərək bugünkü beynəlxalq standartlara malik futbol miqyasını alıb. Rəsmi məlumatlar görə, 1825-ci ildən bəri yüzlərlə regional və beynəlxalq miqyaslı oyunlar təşkil olunub. Qətər də daxil olmaqla ümumilikdə futbol üzrə 22 dünya çempionatı keçirilib. İstər regional, istərsə də beynəlxalq çempionatlarda diqqətçəkən çoxsaylı maraqlı hadisələr baş verib. Oyunçular arasında dava-dalaşdan tutmuş azerkeşlərin bir-birinə hücum edərək kütləvi ölüm -qalım savaşlarına qədər hadisələr baş verib. Məğlubiyyətlərini həzm edə bilməyən ölkələr olub ki, meydandakı məyusluqlarını qalib komandanın dövlətinə hücum etməklə aradan qaldırmağa çalışıblar. 1969-cu il dünya çempionatının seçmə mərhələsinin pley-off oyunlarında El Salvador milli komandasının Honduras milli komandası tərəfindən məğlub edilməsini həzm edə bilməyən El Salvador qonşusu Hondurasa hücum edib və 8 gün müharibə aparıb. Nəhayət, Birləşmiş Millətlər Təşkilatının vasitəçiliyi ilə iki ölkə arasındakı müharibə dayandırılıb. Hazırda dünyada keçirilən futbol turnirlərində ölkələrarası müharibələr baş verməsə də, hər halda futbolun keçirildiyi oyunlarda siyasi maraq toqquşmaları baş verməkdədir. Elə uzağa getmədən Qətərdə keçirilən futbol üzrə dünya çempionatının qrup mərhələsində ABŞ-Molla rejimi qarşılaşmasına nəzər yetirmək kifayətdir. Oyun idman mübarizəsindən çox siyasi savaş mücadiləsinə oxşayırdı. Meydanda yalnız ağır silahlar çatmırdı. Oyunçular bir-birinə çiyin atır, badalaq vurur, uca səslə küçə söyüşləri səsləndirirdilər. Dünya KİV-lərinin yazdığına görə, ABŞ-Molla rejimi qarşılaşması o dərəcə gərgin xarakter alıbmış ki, Qətər hakimiyyəti meydançanın ətrafına və şəhərin küçələrinə xüsusi təyinatlı qüvvələr yeritməyə məcbur olub. Zatən Molla rejimi terrorçu bir rejim olduğundan Qətər dövlətinin qabaqlayıcı tədbirlər görməsi başadüşüləndir. Molla rejimi məğlub olduğu zaman bütün Amerika əhalisi şadyanalıq etmiş Dövlət Katibi Bliker və prezident Bayden qol götürüb oynamışlar. Mundialda diqqətçəkən maraqlı hadisələrdən biri də Səudiyyə Ərəbistanı hökumətinin əzəli rəqibi olan Argentina üzərində qələbəyə görə oyunçularının hər birini 2,5 milyon avro pulla mükafatlandırması oldu. Dördqat dünya cempionu Almaniya qrupda oyunlarını dayandırsa da, çempionatın favoriti hesab olunan Mərakeş dünya futbolsevərlərini təəccübləndirməkdədir. Mərakeş yeddinci dəfədir ki, futbol üzrə dünya çempionatında iştirak edir. Onların ən yaxşı nəticələri 1986-cı ildə dördə bir finala qədər yüksəlmələri olub. Qətərdə keçirilən dünya çempionatında Mərakeş futbolçuları meydanda maraqlı və baxımlı futbol göstərdiklərinə rəğmən azarkeşləri də maraqlı nüanslar ortaya qoyublar. Adətən, eşidib və görürmüşük ki, meydanda uduzan tərəf qan-qan deyir və küçələrə çıxıb mağazaları dağıdıb, insanlara hücüm edirlər. Mərakeşlilər isə meydanda futbolçular baxımlı oyunları ilə tamaşaçıları təəccübləndirdikləri kimi, onlar da dünyanı hərəkətləri ilə güldürürlər. Bəli, bəli, güldürürlər. Ona görə ki, Mərakeş futbolçularının Belçikanı, Niderlandı məğlub etmələrindən sonra mərakeşlilər Belçikada, Niderlandda, Hollandiyada və digər Avropa şəhərlərində küçələrə axışıb, mağazaları qarət edib, dövlət binalarını yandırıb, ölkələrin bayraqlarını aşağı endirməyə çalışmışlar. Sadə yazar olaraq mərakeşlilərin əndazəni aşan hərəkətlərində başa düşmədiyim bir sıra məqamlar vardı. Anlamadım ki, Mərakeş futbol komandası ölkəsinə qalibiyyət sevinci bəxş etdiyi halda, Avropa ölkələrində yarı ac, yarı tox həyat tərzi keçirən sadə mərakeşlilər küçələrə çıxıb niyə dağıtmağa, sındırmağa, qarşılarına çıxan insanları əzişdirməyə çalışırdılar? Belçikanın dövlət bayrağını endirməklə nəyə nail olmaq istəyirdilər? Dükan və bazarlara basqın edib qarətlər etməklə nə qazanacaqlardı ki? Bir epizodda baxdım ki, Bürusseldə bir mərakeşli binanın damına qalxır və çalışır ki, binanın üzərindəki, dövlət bayrağını endirsin. Polis bayrağı mərakeşlinin əlindən alır, digər polis isə onun bədəninin müxtəlif yerlərinə zopa ilə vurub, onu binadan aşağı salır. Deyirəm ki, Mərakeş futbol komandası rəqiblərinə qalib gələndə mərakeşlilər küçələrə çıxıb dağıdırlar, görən uduzsalar nə baş verər? Təbii ki, nələr edə biləcəklərini komandanın uduzmasından sonra bilmək olar. Hələlik isə, komanda irəliləyir və irəlilədikcə də azarkeşlər qol-qanad açıb uçurlar. Hərdən fikirləşirəm ki, elə məqam ola ki, Mərakeş komandası Fransa futbol komandası üzərində parlaq qələbə qazana. Əminəm ki, bu halda vay düşər fransızların arasına. Nəzərə almaq lazımdır ki, Marseldə, Parisdə mərakeşlilərin sayı yüz minlərlədir. Qələbənin sevincindən göylərdə uçan on minlərlə mərakeşli hürrey verib, uçarlar Fransa Senatının içərilərinə, ermənipərəst senatorları o ki var əzişdirib, şilküt edərlər. Sonra da üz tutarlar prezidentin iqamətgahına, Makronu tutub, eşşək balası qədər əzişdirərlər. Sonra da deyələr ki, di get, erməni bacının yanına. Beləcə Mərakeş futbol komandası Qətərdə finala yüksələ bilməsə, də azarkeşləri Fransanın şəhərlərini fəth edib, Avropada yeni tarix yazarlar.

# Rusiyalı ekspert: "Ermənistanın üzərinə götürdüyü bütün öhdəliklər tam şəkildə yerinə yetirilməlidir"

## İqor Korotçenko: Cənubi Qafqaz regionuna sülhün gəlməsinin əsas şərti sülh müqaviləsinin imzalanmasıdır



Dekabrın 5-də Moskvada Rusiya və Azərbaycanın xarici işlər nazirləri Sergey Lavrov və Ceyhun Bayramov arasında danışıqlar iki ölkə arasında müxtəlif səviyyələrdə son ayların ən aktiv təmasları fonunda baş tutub. Rusiya Xarici İşlər Nazirliyində Moskva danışıqları ərəfəsində deyildiyi kimi, "Azərbaycan Rusiyanın Cənubi Qafqaz və Xəzər regionunda mühüm tərəfdaşı və müttəfiqidir".

Görüş bu ilin fevralında iki ölkə liderləri tərəfindən imzalanmış Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannamənin, o cümlədən beynəlxalq vəziyyət prizmasından həyata keçirilməsinin inkişafı istiqamətində keçirilib.

Beləliklə, tərəflər Qərbə yönümlü inkişaf etmiş nəqliyyat və logistika zəncirlərinin itirilməsi fonunda Moskva üçün mərkəzi strateji layihələrdən birini- Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşdırılmasını müzakirə ediblər. Azərbaycan dəhlizin əsas iştirakçılarından biridir və bu gün onun Rəşt-Astara hissəsinin həyata keçirilməsində Rusiya və İranla birlikdə mərkəzi rol oynayır. Rusiya diplomatiyasının rəhbəri Sergey Lavrovun Moskvada azərbaycanlı həmkarı ilə danışıqların yekunlarına dair mətbuat konfransında dediyi kimi, hazırda bu məsələ ilə bağlı intensiv iş gedir, "müzakirələr canlanıb" və jurnalistlər bu mövzuda xəbərləri tezliklə eşidəcəklər.

Bundan əlavə, tərəflər Azərbaycan Respublikasında Rusiyanın "Mir" ödəniş sisteminin işləməsi üzrə işləri davam etdirirlər. Artıq 3 Azərbaycan bankı bu sistemlə işləyir. Ənənəvi olaraq, danışıqların mərkəzi məsələlərindən biri Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması olub.

Lavrov Rusiyanın bu məsələdə bütün istiqamətlərdə irəliləyişə kömək etməyə hazır olduğunu bir daha təsdiqləyib və bir daha qeyd edib ki, Azərbaycan və Ermənistan liderlərinin Praqada qəbul etdikləri sənəd iki ölkə arasında münasibətlərin normallaşmasına əsaslanan BMT Nizamnaməsi və Alma-Ata Bəyannaməsi və bu, onun fikrincə, nizamlanma ilə bağlı vəziyyəti xeyli asanlaşdırır. Lavrov bundan əvvəl dekabrın 1-də keçirdiyi mətbuat konfransında demişdi ki, bu sənədlərə əməl etsəniz, Qarabağ Azərbaycanın bir hissəsidir.

Eyni zamanda, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasında Rusiyanın vasitəçi rolunun vacibliyini bir daha təsdiqləyib. Bununla yanaşı, Bayramov bir daha bəyan edib ki, Ermənistan-Azərbaycan nizamlanmasında irəliləyiş məhduddur. Azərbaycan diplomatiyasının rəhbəri həmçinin bildirib ki, Azərbaycan bu yaxınlarda sülh sazişinin prinsiplərinə dair şərhlərin üçüncü siyahısını Ermənistan tərəfinə verib və Bakı bu ilin sonuna qədər erməni həmkarı ilə bu məsələ ilə bağlı üçüncü görüşün keçirilməsinə ümid edir.

Bunun fonunda Sergey Lavrov Azərbaycan tərəfi ilə Rusiya sülhməramlıları arasında Qarabağda qeyri-qanuni hasilat məsələsi ilə bağlı danışıqlara da münasibət bildirib. Lavrovun sözlərinə görə, ərazidə Azərbaycan departamentlərinin nümayəndələri Rusiya sülhməramlı kontingentinin iştirakı ilə işləyirlər. "Digər hallarda olduğu kimi, azərbaycanlı qonşularımızın və həmkarlarımızın üçtərəfli bəyanatların razılaşmalarının icrası ilə bağlı verdiyi bütün suallar bizim üçün prioritet əhəmiyyət kəsb edir. Ərazidəki Rusiya hərbçiləri bununla fəal məşğuldur", - Rusiya XİN rəhbəri bildirib.



Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko "Moskva-Baku" portalına danışıqlarının nəticələrini şərh edib. Politoloqun şərhini oxucularımıza təqdim edirik.

-Xarici işlər nazirləri arasında bu gün Moskvada aparılan danışıqlar göstərdi ki, Rusiya və Azərbaycan eyni istiqamətə baxır- həm Bakı ilə İrəvan arasında münasibətlərin tezliklə normallaşması məsələsində, həm də dəyişən dünyada irəliləmək məsələsində.

Moskva Azərbaycan və Ermənistan arasında nizamlanma yolunda effektiv vasitəçi olmaq üçün hər cür səy göstərir. Həm Azərbaycanın xarici işlər nazirinin Moskvaya səfəri, həm də Lavrovla danışıqları Cənubi Qafqazda uzunmüddətli sülhə nail olmaq baxımından önəmlidir. Biz bilirik ki, açıq-aşkar anti-Azərbaycan mövqe tutan Fransanın Ermənistanın danışıqlar yolundan çəkmək cəhdləri Bakının Brüssel meydanında danışıqlardan imtina etməsi ilə yekunlaşıb.

Odur ki, Moskvada Lavrovla Bayramovun görüşü Bakının Ermənistanla Rusiyanın vasitəçiliyi əsasında danışıqları davam etdirməyə hazır olmasının təsdiqidir. Və Rusiyanın vasitəçiliyi bir daha təsdiqlədi ki, sülh müqaviləsi üçün əsas məsələ Azərbaycan və Ermənistan tərəfindən ərazi bütövlüyünün qarşılıqlı tanınması, eləcə də Qarabağın Azərbaycan olması faktı ola bilər. Amma onu da nəzərə almaq lazımdır ki, Rusiyada Azərbaycanla eyni səmtə baxmayan qüvvələr var. Bunlar Rusiya siyasi sisteminin reallıqlarıdır.

Nə olursa olsun, Rusiya və Azərbaycan Müttəfiqlərin Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzaladılar. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı və ondan sonrakı bəyanatlar var. Bu fundamental sənədlərdə Rusiya siyasətinin vektoru aydın şəkildə göstərilib.

Rusiya Azərbaycanı postsovet məkanında özünün ən mühüm strateji tərəfdaşı və müttəfiqi hesab edir. Azərbaycan Rusiya üçün son dərəcə əhəmiyyətli olan Şimal-Cənub multimodal nəqliyyat dəhlizi layihəsinin əsas iştirakçısıdır. Bu gün Azərbaycan prezidenti İlham Əliyev Bakıda Rusiya liderinin köməkçisi Levitin ilə görüşüb. Onlar "Şimal-Cənub" və Zəngəzur dəhlizini müzakirə ediblər. Hər iki layihə Rusiya üçün çox önəmlidir.

Bakının simasında biz öz öhdəliklərini yerinə yetirən etibarlı tərəfdaş görürük. İlham Əliyevin siyasi reputasiyası elədir ki, nəsə desə, o olacaq. Bunu Moskvada hamı yaxşı bilir. Azərbaycanın həm dostları, həm də əleyhdarları.

Müasir beynəlxalq münasibətlərdə siyasətin bu xüsusiyyəti çox nadir və vacibdir. Qərbin tətbiq etdiyi iqtisadi sanksiyalar fonunda Azərbaycan da özünü etibarlı dost və effektiv tərəfdaş kimi göstərir. Bu, bizim münasibətlərimizin dəyəridir.

Sergey Lavrovun Rusiyanın üçtərəfli bəyanatın bəndlərinə əməl edilməməsi ilə bağlı Azərbaycanı narahat edən məsələlərin həlli ilə bağlı açıqlamasına gəldikdə, bu, son dərəcə vacibdir. Azərbaycanın Qarabağ iqtisadi rayonundakı Rusiya sülhməramlılarının komandanı bildirib ki, Laçın dəhlizində minigömrük evinin yaradılması Azərbaycan tərəfi ilə müzakirə olunub. Rusiyanın bütün səviyyələrdə tanıdığını və bəyan etdiyini əsas götürərək: Qarabağ Azərbaycandır, istənilən qanunsuz fəaliyyət, o cümlədən təbii sərvətlərin mənimsənilməsi, Qarabağ bölgəsində qiymətli metalların çıxarılması qanunsuzdur. Qeyd edək ki, bu istehsalın son benefisiarları Qərb şirkətləridir. Bunların hamısı tamamilə qanunsuz fəaliyyətlərdir. Ona görə də Bakının ətraf mühitin monitorinqi ilə bağlı tələbləri tamamilə ədalətlidir.

Mən və mənimlə işləyən ekspertlər açıq şəkildə Laçın dəhlizinin rejimi ilə bağlı təkliflərimi bildirdik, insanların və malların nəzarətsiz hərəkətinin dayandırılması, əcnəbilərin əraziyə girişinin dayandırılması üçün gömrük və sərhəd nəzarətinin yaradılmasının zəruriliyini bildirdik. Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz malların daşınmasını dayandırmaq lazımdır. İndi biz görürük ki, bu təkliflərin praktiki icrasına başlanılıb. Bu isə ekspertlərin, beyin mərkəzlərinin praktiki həll proseslərinə təsirinin effektivliyinin təsdiqidir. Bu xəbəri böyük məmnuniyyətlə qəbul edə bilərəm. Biz öz mövqeyimizi digər məsələlərlə yanaşı, Rusiyanın qərar qəbuletmə mərkəzlərinə çatdırdıq. Və bu, səmərəli ekspert diplomatiyasının nümunəsidir, çünki o, sülhün bərqərar olmasına və Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində hərəkətə xidmət edir.

2023-cü il Ermənistan-Azərbaycan nizamlanmasında dönüş nöqtəsi olacaq. Çünki üçtərəfli bəyanatın imzalanmasından ötən iki il ərzində Ermənistan heç bir iş görməyib. Üstəlik, bu il o, Qərbin köməyi ilə üçtərəfli bəyanata yenidən baxmağa başladı. Amma o, bacarmır. 2023-cü ildə əvvəlki 2 ildə edilməmiş hər şeyi etməlidirlər.

2023-cü ildə biz Rusiyada Bakı ilə İrəvan arasında İlham Əliyev tərəfindən formalaşdırılmış 5 prinsip əsasında sülh müqaviləsinin imzalanacağını gözləyirik. Bu prinsiplər beynəlxalq hüquq normalarına və BMT Nizamnaməsinə tam uyğundur. Cənubi Qafqaz regionuna sülhün gəlməsinin əsas şərti sülh müqaviləsinin imzalanmasıdır.

Zəngəzur nəqliyyat dəhlizinin işə salınması da həyata keçirilməlidir. Erməni lobbiçilərinin qışqırmasından asılı olmayaraq, Rusiya bu layihənin işə salınmasında şübhəsiz ki, maraqlıdır. Həmişə təqdim etmək istədikləri kimi, bunda daha çox maraqlı olan Türkiyə deyil, Rusiyadır. Xüsusən də bizim Qərbdən blokada şəraitində.

Rusiya 2023-cü ildə lazım olan hər şeyi, o cümlədən Ermənistana siyasi və iqtisadi təsir tədbirləri görməlidir ki, dəhliz işə düşsün. Çalışmalıyıq ki, məsələ öz həllini tapsın. Ermənistanın üzərinə götürdüyü bütün öhdəliklər tam şəkildə yerinə yetirilməlidir.

Azərbaycanın Qarabağ bölgəsindən qanunsuz silahlı erməni birləşmələrini çıxarmaq lazımdır. 2023-cü il üçün ekspert icmasının vəzifələrindən biri də Azərbaycan tərəfinin rəhbərliyi altında regionun necə qayıdacağı ilə bağlı dəqiq "yol xəritəsi" hazırlamaqdır. Bəs sonra- Qarabağ ermənilərinin Azərbaycan vətəndaşlığını alması üçün hazırlıqlar necə aparılacaq?

Əgər Ermənistan bu il olduğu kimi danışıqları, razılaşmaların həyata keçirilməsini əngəlləməkdə davam etsə, bunun üçün Qərb tərəfdaşlarını cəlb etsə, sonda bütün cəhdləri ilə belə davranış modelindən heç bir bonus almayacaq. Üstəlik, silahlı təxribatlar indiyə kimi başa çatdığı şəkildə- Azərbaycanın cavabı ilə sona çatacaq. Ekspertlər Moskva və Bakının səylərinin siyasi birləşməsi öz müsbət nəticələrini verməlidir. Baxmayaraq ki, proses asan olmayacaq. Erməni lobbisinin təsir problemini də həll etmək lazım gələcək.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" çərçivəsində hazırlanıb.

SON SƏHİFƏ
SƏS
7 dekabr
2022-ci il

## "Messini necə dayandıracağıq? Hər şeyi özünüz görəcəksiniz"

Futbol üzrə Niderland millisinin baş məşqçisi Lui van Qal DÇ-2022-nin 1/4 finalında Argentinaya qarşı oyun öncəsi komandasının rəqibi hücumçusu Lionel Messini necə dayandıracağına dair planını açıqlamaqdan imtina edib. Qol.az xəbər verir ki, mütəxəssis "NOS"a açıqlamasında deyib:

"Messi qol vurmağa qadir olan ən təhlükəli, yaradıcı oyunçudur. Ancaq komandası topu itirəndə, əslində oyunda iştirak etmir. Bu da bizə daha çox şans verəcək. Messini necə dayandıracağıq? Sizə deməyəcəyəm, cümə günü hər şeyi özünüz görəcəksiniz". Xatırladaq ki, Niderland dekabrın 9-da DÇ-2022-nin 1/4 finalında Argentina ilə qarşılaşacaq .




## Hansı qidalar insanın kökəlməsinə səbəb olur?

"Əsrin bəlalarından biri olan artıq çəki problemini aradan qaldırmaq üçün aparılan tədqiqatlar nəticəsində insanı ən çox kökəldən qidalar müəyyən edilmişdir. İndi nəinki qadınlar, hətta kişilər də kökəlməkdən qorxurlar". Bu fikirləri SİA-ya açıqlamasında diyetoloq Sevinc Həsənzadə bildirib.

Diyetoloq qeyd edib ki, formada qalmağa çalışanlar axşam saat 18:00-dan sonra yemək yemirlər. Bəziləri isə menyusundan çörək və şirniyyatı çıxarır. Adıçəkilən qida məhsulları passiv, oturaq həyat tərzi sürən insanları kökəldə bilər. Qazlı şirin sular yüksək kalorilidir. Bu içkilər susuzluğu yatırmır və toxluq hissi yaratmır, elə bu səbəbdən çox içilir və nəticədə piylənməyə, şəkərli diabet və kariyesə səbəb olur. Qaymaq, xama, kərə yağı, yağlı pendir kimi süd məhsulları, eləcə də marqarin və mayonez də yüksək kalorili olduqlarına görə piylənməyə səbəb olurlar. Alkoqollu içkilər, şəkərli çay və qəhvə artıq çəki yaradır. Belə ki, orqanizm artıq şəkəri piyə çevirir. Ağ çörək və ağ undan hazırlanmış şirniyyatlar, xəmir xörəkləri; yağlı qırmızı və ağ ətdən hazırlanmış xörəklər, kolbasa məmulatları da kökəlməyə səbəb olur. Qaymaqlı dondurma, şokalad, kremli tortla rda bura aiddir. Hamburger, qaynayan yağda qızardılmış kartof, çips, toyuq əti və s. sürətlə çəki artırır. Bunun səbəbi fast-fud yeməklərinə, eləcə də kolbasa məmulatlarına, konservlərə və s. qatılan mononatrium-qlütomatdır .



Yuxarıda adı çəkilən qida məhsulları passiv, oturaq həyat tərzi sürən insanları kökəldə bilər. Aktiv fiziki işlə məşğul olan, qəbul etdiyi kaloriləri "xərcləyən" və saat 18.00-dan sonra yeməyən insanlar üçün kökəlmə riski yüksək deyildir.

## Gədəbəydə qadın balta ilə qətlə yetirilib

Gədəbəydə qadın balta ilə qətlə yetirilib, əri şübhəli bilinir. Bu barədə SİA Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib. Qeyd edilib ki, rayonun Şəkərbəy kəndi ərazisində 1990-ci il təvəllüdlü Könül Abdullayevanın öldürülməsi barədə rayon prokurorluğuna ilkin məlumat daxil olub.

Aparılan araşdırmalarla zərərçəkmişin əri, 1990-cı il təvəllüdlü Elməddin Abdullayevin şəxsi münasibətlər zəminində aralarında yaranan münaqişə zamanı balta ilə çoxsaylı xəsarətlər yetirərək Könül Abdullayevanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Hazırda prokurorluq və polis əməkdaşları hadisə yerinin müayinəsini aparırlar.



## İstanbul qardan doyacaq!



Qar yağışı güclü zərbə vuracaq. Dekabr ayı başlayandan havalar getdikcə soyuyur. Havaların soyuması ilə İstanbul və Ankara kimi şəhərlərdə qışa hazırlıqla bağlı meteoroloq Kerem Ökten diqqətçəkən açıqlama verib. SİA türk mətbuatına istinadən xəbər verir ki, İstanbul üçün əfsanəvi qış adlandırılan 1987-ci ilin qışına diqqət çəkən Ökten peyk xəritələrində qarşıdakı günləri şərh edib.

1987-ci ilin əfsanəvi qışı qayıdır, qarla doyacağıq, deyən meteorologiya mütəxəssisi sosial media hesabından verdiyi açıqlama ilə önümüzdəki günlərdə Türkiyədə gözlənilən hava şəraiti ilə bağlı diqqətçəkən məlumatlar verib. Meteorologiya isə dekabrın 6-na olan hava hesabatında leysan və qar yağacağı ilə bağlı xəbərdarlıq edib.

*Sədaqət Bayramova*

## Bakıda qadına qarşı soyğunçuluq edilib

Bakıda ticarət mərkəzində qadına qarşı soyğunçuluq edilib. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Nərimanov rayonu ərazisindəki ticarət mərkəzlərinin birində paytaxt sakini olan bir qadına qarşı soyğunçuluq edilməsi barədə polisə məlumat daxil olub.



Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində bu əməli törətməkdə şübhəli bilinən paytaxt sakini Emil Süleymanov müəyyən olunaraq saxlanılıb. Nərimanov Rayon Polis İdarəsində araşdırma aparılır.

## "Yeməkdən dərhal sonra idman etmək sağlamlıq üçün çox zərərlidir"



"Ümumiyyətlə, fiziki aktivlik, idman orqanizmin sağlamlığı üçün çox faydalıdır. Ancaq diqqət etmək lazımdır ki, idmanı nə zaman edirik. İdman edərkən nə ac, nə də tox olmalıyıq. Yemək yedikdə orqanizmdə bütün daxili orqanlar çalışmağa başlayır. Xüsusilə də, ürək daha çox çalışır". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib.

Onun sözlərinə görə, bu səbəbdən də yeməkdən dərhal sonra idman etmək sağlamlıq üçün çox zərərlidir: "Bu, sadəcə, idman üçün deyil, fiziki aktivlik və yaxud ağır qaldırmaq, digər ağır işləri görməyə də aiddir. Mütləq şəkildə yeməkdən sonra ən az yarım saat oturmaq lazımdır. Hələ mümkündürsə, bunu qırx-əlli dəqiqəyə qədər uzatmaq lazımdır. Çünki əks halda qan təzyiqi artar, əzələ və mədədə sancılar yaranar, hətta ürəkbulanma və baş ağrısına belə səbəb ola bilər. Bəzən də olur ki, məclislərdə insanlar həddindən artıq yemək qəbul edir və ardınca da rəqs edirlər. Buna da təbii ki, birmənalı şəkildə diqqət edilməlidir.

Ümumiyyətlə yaxşı olar ki, yemək yedikdən sonra idman edilməsin, ağır iş görülməsin. Xüsusilə də, tox qarına hər hansısa bir idmanla məşğul olmaq insanı daha çox yorur. Yaxşı olar ki, yeməkdən ən az iki saat sonra idman edilsin. Daha ağır yemək yeyildikdə isə, bu müddəti üç saata qədər uzatmaq olar.

Bir çox hallarda insanlar yeməkdən sonra yatmaq istəyirlər. Bu da orqanizmin sağlamlığı üçün zərərlidir. Yeməkdən dərhal sonra yatmaq mədə şirəsinin azalmasına, yeməklərin həzm prosesinin pozulmasına gətirib çıxarır. Əgər səhər tezdən ac qarına idman ediləcəksə, bu zaman mütləq enerji olaraq su qəbul edilməlidir. Hətta suyun tərkibinə bal, limon və s. əlavə edilərək qəbul olunarsa, bu, daha faydalı olar".

*Səbinə Hüseynli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3600**